DİQQƏT!

**SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!**

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

*Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.*

***QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.*




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!


*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 176 (6140) 7 oktyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## "Bu gün həm bizim xalqlarımız, həm də bütün dünya görür ki, Türkiyə-Azərbaycan birliyi nə deməkdir"

*Prezident İlham Əliyev Türkiyənin Xarici İşlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

*Bax 2*



## Hikmət Hacıyev: "Amnesty International" bir daha nə qədər birtərəfli, qərəzli, ikili standartlardan çıxış edən bir təşkilat olduğunu göstərdi

*Bax 4*



***"Amnesty International" bir daha nə qədər birtərəfli, qərəzli, ikili standartlardan çıxış edən, yalnız kağız üzərində müstəqil və ermənipərəst bir təşkilat olduğunu göstərdi. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Amnesty International"un Ermənistanın...***

## Dövlət Təhlükəsizliyi Xidməti Qarabağda döyüşən kürd terrorçularının səsini yayıb

*Bax 4*



***Ermənistan Azərbaycan Respublikasına qarşı hərbi təcavüzündə xarici muzdlulardan, o cümlədən İraq və Suriya ərazisindən gətirilmiş kürd terrorçu qruplaşma üzvlərindən fəal istifadə edir. AZƏRTAC xəbər verir ki, bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) ictimai əlaqələr şöbəsinin yaydığı məlumatda bildirilib. Məlumatda ölkəmiz əleyhinə...***

## Milli Məclis Madagiz kəndinin Suqovuşan adlandırılmasını təsdiqlədi

*Bax 6*



***Dünən Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bu gün hər birimizin ürəyinin qürurla dolubdaşdığını bildirib. Qurtuluş savaşı aparan Ordumuz yeni-yeni ərazilərimizi düşməndən təmizləyərək zəfər yürüşünü davam etdirir. Azərbaycan Respublikasının Prezidenti...***

## "Ermənistan "İsgəndər"i tətbiq edəcəyi halda adekvat tədbir görəcəyik"



***Oktyabrın 6-da Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xüsusi xidməti müşavirə keçirilib. "Qafqazinfo" xəbər verir ki, müşavirədə aparılan əks-hücum əməliyyatında hazırda mövcud olan vəziyyət təhlil olunaraq düşmən qüvvələrinin planlı, məqsədyönlü və ardıcıl...***

*Bax 5*

## Ermənistan ordusunun dinc əhalini hədəfə alması nəticəsində 27 nəfər həlak olub, 141 nəfər xəsarət alıb

***Azərbaycan Respublikasının Baş Prokurorluğu beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirən təcavüzkar Ermənistanın hərbi-siyasi...***




*Bax 10*

## Ermənilər yasda: Ermənistan ordusu Artur Qalstyanı itirdi



*Bax 14*

## Ermənistanda antisemitizm



*Bax 12*

## Erməni KİV-ləri Paşinyanın və komandasının mühakiməsini tələb edirlər!



*Bax 14*

# "Bu gün həm bizim xalqlarımız, həm də bütün dünya görür ki, Türkiyə-Azərbaycan birliyi nə deməkdir"

*Prezident İlham Əliyev Türkiyənin Xarici İşlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Türkiyə nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev bildirib ki, Azərbaycanın yanında Türkiyə kimi dünya miqyasında böyük bir güc olan dövlət var, qardaş ölkə var:**

-Xoş gəlmisiniz, əziz Mövlud bəy, sizi salamlayıram. Şadam ki, siz gəlmisiniz. Siz Azərbaycanda dəfələrlə olmusunuz. Amma bu səfərin xüsusi önəmi var. Azərbaycan üçün o qədər də asan olmayan bir dönəmdə sizin gəlməyiniz əlbəttə ki, xüsusi önəm daşıyır. Bu, qardaş ölkənin açıq dəstəyinin təzahürüdür. Bu dəstəyə görə Azərbaycan xalqı qardaş türk xalqına və onun Prezidentinə dərin minnətdarlıq hissi ilə yaşayır.

Mənim əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan ilə bu günlərdə təmaslarım, onun çox açıq, qətiyyətli bəyanatları bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil. Azərbaycanın yanında Türkiyə kimi dünya miqyasında böyük bir güc olan dövlət var, qardaş ölkə var. Bu dəstək bizi ruhlandırır, bizə əlavə güc verir və eyni zamanda, bölgədə sabitliyin, əmin-amanlığın təmin edilməsi üçün önəmli rol oynayır. Mən bunu bu günlər ərzində demişəm ki, Türkiyə bölgədə sabitləşdirici rol oynayır. Türkiyənin bölgədə və dünyada yalnız sülhə hesablanmış siyasəti artıq öz nəticələrini verməkdədir, həm Yaxın Şərq bölgəsində, eyni zamanda, Qafqaz bölgəsində. Ona görə Ermənistanın növbəti hücumu ilə əlaqədar bu gün yaranmış vəziyyət bir daha onu göstərir ki, Türkiyə həm regionda, həm dünyada söz sahibidir. Əlbəttə ki, bu, bizi gücləndirir, ruhlandırır. Bu gün həm bizim xalqlarımız, həm də bütün dünya görür ki, Türkiyə-Azərbaycan birliyi nə deməkdir.

Əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan ilə biz bu məsələ ilə bağlı dəfələrlə öz sözlərimizi demişik ki, Türkiyə-Azərbaycan birliyi bütün dünya üçün örnək olmalıdır. Bu gün biz real həyatda bunu göstəririk, sübut edirik və bu birliyin gələcəyi, hesab edirəm ki, bölgədə dayanıqlı sülhün təmin edilməsi üçün əsas şərt olacaqdır.



Sizi bir daha salamlayıram. Xahiş edirəm ki, mənim səmimi salamlarımı hörmətli cənab Prezidentə çatdırasınız.

x x x

Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu:

-Sağ olun, cənab Prezidentim. Əvvəlcə, bizi qəbul etdiyiniz üçün Sizə çox təşəkkür edirik. Hörmətli Prezidentimiz, qardaşınız Rəcəb Tayyib Ərdoğanın, bütün kabinetimizin, - dünən Nazirlər Kabinetində toplantımız var idi, - və türk xalqının Sizə salamlarını və uğur diləklərini gətirmişəm.

Xüsusilə Zati-alinizin də vurğuladığı kimi, Türkiyənin, türk xalqının Can Azərbaycana olan dəstəyini bir daha bütün dünyaya göstərmək üçün buraya səfərə gəldim. Bu gün Sizin liderliyinizlə Azərbaycan öz torpaqlarını azad etmək üçün mübarizə aparır və buna qadirdir, gücü vardır, potensialı vardır. Əlbəttə, Türkiyə olaraq və türk xalqı olaraq, biz də nə vaxt ehtiyacı olarsa, hansı sahədə ehtiyac duyarsa Azərbaycana hər cür dəstəyi verməyə hazırıq. Bunu Prezidentimiz Ərdoğan və bizlər hər platformada izah edirik, vurğulayırıq.

Azərbaycanın haqlı mübarizəsini bütün dünyaya çatdırmaq bizim də borcumuzdur. Bunu Ceyhun qardaşımla, xaricdəki bütün səfirliklərimizlə - Azərbaycanın və Türkiyənin səfirlikləri ilə birlikdə həyata keçiririk. Bu gün Sizdən alacağımız təlimatlarla daha böyük güclə bir yerdə çalışmağa davam edəcəyik. Azərbaycanın işğal edilmiş torpaqları artıq azad olunmalıdır. Azərbaycan hüquqi və mənəvi cəhətdən də haqlıdır və bu haqlı mübarizəsini hər yerdə izah edərkən bu mübarizəni də meydanda və masada birlikdə aparmağa, inşallah, davam edəcəyik.

Bu gün Sizin qəbulunuzdan sonra qardaşım Ceyhunla bu məsələlərdə necə birlikdə hərəkət edəcəyimizi dəyərləndirəcəyik.

Bizi qəbul etdiyiniz üçün bir daha təşəkkür edirik. Dostluq qrupumuzun sədri Şamil bəylə birlikdə gəldik. İnşallah, bugünkü toplantılarımız Azərbaycanın torpaqlarının azad edilməsi yolunda xeyirlərə səbəb olacaq. Bir daha təşəkkür edirəm, hörmətli Prezidentim.

Prezident İlham Əliyev: Çox sağ olun, təşəkkür edirəm.

# İran Prezidenti Həsən Ruhani Prezident İlham Əliyevə telefonla zəng edib



**İran İslam Respublikasının Prezidenti Həsən Ruhani oktyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Həsən Ruhani Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın davam etməsindən ölkəsinin narahatlığını ifadə edib və münaqişənin tez bir zamanda sülh yolu ilə həll olunacağına ümidvar olduğunu bildirib.**

Prezident İlham Əliyev qeyd edib ki, sentyabrın 27-dən başlamış və bu gün də davam edən Ermənistanın hərbi təxribatı nəticəsində təmas xətti boyu yerləşən hərbi birləşmələrimizin mövqeləri və yaşayış ərazilərimiz Ermənistan tərəfindən ağır artilleriya atəşinə məruz qalıb. Nəticədə hərbi qulluqçularımız, 27 mülki şəxsimiz həlak olub, 170-dən çoxu yaralanıb, 900-dən artıq evə ziyan dəyib və ya tamamilə dağıdılıb. Azərbaycan tərəfi uğurlu əks-hücum əməliyyatları həyata keçirərək, işğal olunmuş torpaqlarımızın bir hissəsini işğaldan azad edib.

Dövlətimizin başçısı qeyd edib ki, İran-Azərbaycan dövlət sərhədinin işğal olunmuş ərazisinin bir hissəsi Azərbaycanın nəzarətinə keçib və sərhədboyu işğaldan azad olunmuş ərazilərdə tezliklə Azərbaycan sərhəd qoşunlarının və sərhəd infrastrukturunun yerləşdirilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyev bildirib ki, Ermənistanın davam edən hərbi təcavüzü və təxribatları regionda sülhün və təhlükəsizliyin təmin olunması işində ən böyük əngəldir. Prezident İlham Əliyev və Prezident Həsən Ruhani ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin gələcək uğurlu inkişafı ilə bağlı məsələləri müzakirə edib və əlaqələrimizin ölkələrimizin və xalqlarımızın maraqlarına uyğun olaraq bundan sonra da genişlənəcəyinə və möhkəmlənəcəyinə ümidvar olduqlarını bildiriblər.

# Leonid Kalaşnikov: Rusiyanı Qarabağda gedən müharibəyə cəlb etməyə cəhd göstərirlər



Rusiyanı hazırda Azərbaycan ilə Ermənistan arasında gedən müharibəyə cəlb etməyə cəhd göstərirlər. AZƏRTAC xəbər verir ki, RF Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə Komitəsinin sədri Leonid Kalaşnikov bu fikri "Rossiya 1" telekanalının "60 minut" siyasi tok-şousunun yeni buraxılışında söyləyib.

Verilişdə Almaniyanın "Spiegel" jurnalında dərc olunan materiala istinadən Qarabağda döyüşlərdə yaraqlıların iştirakı mövzusu müzakirə edilib. Deputat qeyd edib ki, o, dürüst məlumatlar almaqdan ötrü Azərbaycan Prezidentini dinləyir. Deputat Rusiyanı daim bu münaqişəyə cəlb etməyə cəhd göstərilməsindən hiddətləndiyini bildirib. Kalaşnikovun fikrincə, indiki vəziyyətdən çıxmağın yolu Kazan müqaviləsinin maddələrini yerinə yetirməkdir, yəni sərhədlərin açılması müqabilində Ermənistan tədricən rayonları qaytarmalıdır.

## Yaponiya saytı: "Azərbaycan Prezidenti Ermənistandan silahlı qüvvələrini Dağlıq Qarabağdan çıxarmaq üçün son müddəti müəyyənləşdirməyi tələb edib"




***Azərbaycan Prezidenti İlham Əliyev bəyan edib ki, hərbi əməliyyatların dayandırılması üçün Ermənistan tərəfi Dağlıq Qarabağdan ordunun çıxarılması cədvəlini təqdim etməlidir. AZƏRTAC xəbər verir ki, bu barədə Yaponiyanın "newsweekjapan.jp" saytı məlumat yayıb. Bildirilir ki, Azərbaycan televiziyasında xalqa müraciət edən Prezident İlham Əliyev hazırda Azərbaycan Silahlı Qüvvələrinin 1990-cı illərdə Ermənistan ordusu tərəfindən işğal edilmiş əraziləri azad etmək üçün uğurla irəlilədiyini deyib.***

Məlumatda Azərbaycan Prezidentinin Dağlıq Qarabağın Azərbaycan torpağı olması və münaqişənin dayandırılması üçün Azərbaycan tərəfinin şərtini açıqlayan fikrindən sitat gətirilib: "Mənim şərtim birdir - çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə".

Yazıda Azərbaycan Prezidentinin 30 ilə yaxın bir müddətdə Ermənistandan Azərbaycan torpaqlarını qaytarmasını tələb edən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin yerinə yetirilmədiyinə görə beynəlxalq ictimaiyyəti tənqid etməsi barədə fikirləri də verilib.

Qeyd olunub ki, Prezident İlham Əliyev öz çıxışında Rusiya, ABŞ və Avropa İttifaqının hərbi əməliyyatların təcili şəkildə dayandırılması barədə tələbini qəbul etmədiyini aydın şəkildə hiss etdirib.

Məqalədə Ermənistan-Azərbaycan münaqişəsinin tarixinə də toxunulub, 1990-cı illərin əvvəllərində hərbi əməliyyatların intensivləşdiyi və nəticədə 30 min nəfərin həyatını itirdiyi qeyd edilib. Bildirilib ki, Ermənistan ordusu Dağlıq Qarabağ ilə yanaşı Azərbaycanın ətraf rayonlarını da işğal edib. Münaqişənin Azərbaycanın Avrasiyanın enerji təhlükəsizliyində mühüm rol oynayan neft və qaz kəmərləri üçün təhlükə yaratdığı da yazıda öz əksini tapıb.

## Sahibə Qafarova: "İşğal altında olan bütün torpaqlarımızda Azərbaycan bayrağı dalğalanacaq"



***Azərbaycan Prezidentinin, Ali Baş Komandanın rəhbərliyi altında şanlı Ordumuzun zəfər yürüşü davam edir. Ordumuz Ermənistanın işğal etdiyi torpaqları bir-birinin ardınca azad edir. Prezident İlham Əliyev dediyi kimi, dövlətimiz heç vaxt Azərbaycan torpağında ikinci dövlətin yaranmasına imkan verməyəcək.***

Bu fikirləri Milli Məclisin Sədri Sahibə Qafarova parlamentin dünən keçirilən iclasda bildirib. Hazırda döyüş meydanında xalqımızın taleyi ilə bağlı məsələnin həll olunduğunu bildirən Milli Məclisin Sədri qeyd edib: "Xalqımızın taleyi həll olunur. Cəbrayıl da daxil olmaqla, işğal altındakı kəndlərimiz, şəhərlərimiz işğaldan azad edilir. Şanlı Ordumuzun qələbələrindən təşvişə düşən Ermənistan məğlubiyyəti qəbul etməyərək mülki əhalini, təmas xəttindən tamamilə kənarda olan ərazilərimizi hədəfə alırlar".

Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan Prezidentinin, Ali Baş Komandanın ətrafında sıx birləşməklə və bu qüvvə sayəsində bütün torpaqlarımızda Azərbaycan bayrağı dalğalanacaq.

## Prezidentin köməkçisi Pakistanın "GEO TV" kanalına müsahibəsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən danışıb



***Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Pakistanın "GEO TV" kanalına müsahibə verib.***

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi müsahibəsində Ermənistanın Azərbaycana qarşı son hərbi təxribatları, mülki insanlarımızın, obyektlərimizin artilleriya və raket atəşinə məruz qalması, Azərbaycan dövlətinin özünün suveren ərazisini müdafiə etməsi barədə danışıb.

Qardaş Pakistan xalqına ən xoş arzularını çatdıran Hikmət Hacıyev 1990-cı illərin əvvəllərində Ermənistan-Azərbaycan münaqişəsinin başladığı vaxtda Pakistan İslam Respublikasının Azərbaycanı dəstəklədiyini bildirib. Qeyd edib ki, Ermənistan Azərbaycana qarşı təcavüz siyasəti və günahsız Azərbaycan vətəndaşlarına qarşı soyqırımı, etnik təmizləmə siyasəti həyata keçirdiyi üçün Pakistanın bu dövlətlə heç bir diplomatik əlaqəsi yoxdur. Sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı növbəti təxribatı baş verdikdə, Pakistan Azərbaycan xalqının öz ərazi bütövlüyünü və vətəndaşlarının təhlükəsizliyini təmin etməklə bağlı haqq işini dəstəkləyən ilk dövlətlərdən biri oldu.

Hikmət Hacıyev Ermənistanın Azərbaycanın mülki əhalisini qətlə yetirmək və mülki infrastruktura maksimum ziyan vurmaq məqsədilə qəsdən genişmiqyaslı hücuma başladığını və buna görə də Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın hərbi təcavüzünü dəf etmək və işğal altındakı torpaqlarımızı azad etmək, eləcə də vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək məqsədilə əks-hücum tədbirləri görməyə məcbur olduğunu deyib. Silahlı Qüvvələrimiz bir sıra irəliləyişlər əldə edərək Ermənistan ordusunun müəyyən ərazilərdən geri çəkilməsinə nail oldu. Ancaq çətin vəziyyətə düşən Ermənistanın siyasi-hərbi rəhbərliyi Azərbaycanın böyük şəhərlərinə və sivil infrastrukturlarına qarşı raket hücumları həyata keçirməyə başladı. Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə "Smerç" raketlərindən atəşə tutuldu. Bu, qəsdən törədilmiş bir hücumdur. Bundan başqa, ermənilər Ermənistan ərazisindən Azərbaycanın digər böyük şəhəri olan Mingəçevirə raket zərbəsi endirməklə növbəti təxribata əl atdılar. Ermənilər təmas xətti boyunca da Azərbaycanın kəndlərini və şəhərlərini atəşə tutular.

Prezidentin köməkçisi Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll etmək məqsədilə artıq 30 ildir ki, danışıqlar apardığını bildirib. O qeyd edib ki, Ermənistanın yürütdüyü təcavüzkarlıq və işğala əsaslanan status-kvonu qoruyub saxlamaq siyasəti ucbatından danışıqlar prosesində heç bir irəliləyiş əldə olunmayıb. Ermənilər hər vasitə ilə danışıqlar prosesini pozmağa çalışırlar. Xüsusilə də Ermənistanın baş nazirinin qeyri-konstruktiv, populist və demaqoq yanaşması danışıqlar prosesinə ciddi xələl gətirir. Bunun nəticəsində isə vəziyyətin kəskinləşdiyini görürük. Bu arada, biz beynəlxalq vasitəçilik missiyasının yetərli olmadığını və danışıqların imitasiyası ilə məşğul olunduğunu, danışıqların, sadəcə olaraq, danışıqlar aparılması naminə uzadılmasının şahidi olduq.

Prezidentin köməkçisi Hikmət Hacıyev müsahibəsində, həmçinin Pakistan İslam Respublikasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı mövqeyinə göstərdiyi dəstəyə görə minnətdarlığını bildirib.

## YAP beynəlxalq siyasi partiya təşkilatlarına, dunya ölkələrinin hakim və eləcə də aparıcı siyasi partiyalarına növbəti müraciət ünvanlayıb

***Yeni Azərbaycan Partiyası sentyabr ayının 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı törətdiyi hərbi təxribat nəticəsində başlayan döyüşlər və Azərbaycan Ordusunun Qarabağın azadlığı uğrunda mübarizəsi ilə əlaqədar, əməkdaşlıq etdiyi siyasi partiya birliklərinə və siyasi partiyalara növbəti müraciət ünvanlamışdır.***

Müraciətdə deyilir: "Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məskənlərini və mülki obyektlərini iriçaplı silahlardan və ağır artilleriyadan atəşə tutması nəticəsində 30 il davam edən Dağlıq Qarabağ münaqişəsi zonasında hərbi qarşıdurma kəskin şəkildə gərginləşmişdir. Ermənistan tərəfi intensiv şəkildə dinc şəhərləri hədəfə aldığından mülki əhali arasında çoxlu ölən və yarananlar var, mülki infrastruktur ciddi dağıntılara məruz qalıb. Ermənistanın silahlı qüvvələri heç cür haqq qazandırıla bilməyən açıq təxribat törədərək oktyabrın 4-də münaqişə zonasından uzaqda yerləşən Azərbaycanın ikinci böyük şəhəri Gəncəni, sənaye mərkəzi olan Mingəçevir şəhərini raket atəşinə tutmuşdur. Dinc əhali arasında yaralanan və ölənlər var, infrastruktura ciddi ziyan vurulub."

YAP-ın müraciətində daha sonra qeyd olunur ki, 30 ildir Azərbaycan ərazilərinin 20 faizi erməni silahlı qüvvələri tərəfindən işğal olunub, bir milyon azərbaycanlı etnik təmizləmənin qurbanı olub. Bu illər ərzində ATƏT-in Minsk Qrupu tərəfindən aparılan vasitəçilik missiyası Ermənistanın qeyri - konstruktiv mövqeyi ucbatından müsbət nəticəyə nail olmayıb. Erməni tərəfinin mövqeyi çox müxtəlif üsullarla status-kvonu saxlamaqdan ibarətdir.

"Hazırda Azərbaycan Ordusu işğal olunmuş torpaqlarımızın azad olunması uğrunda döyüş əməliyyatlarını həyata keçirir. Döyüşlərin dayandırılmasının və münaqişənin nizama salınmasının yeganə ədalətli şərti Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ərazilərindən çıxarılmasıdır. Bütün Azərbaycan cəmiyyəti, ölkənin siyasi partiyaları və vətəndaş cəmiyyəti təsisatları 30 il davam edən işğala qarşı ədalətli mübarizə ideyası ətrafında sıx birləşərək, vahid mövqe nümayiş etdirir.

Erməni işğalı və hazırkı şəraitdə dinc əhalinin atəşə tutulması Cənubi Qafqazda, bütövlükdə regionda sülh və təhlükəsizliyə ciddi təhdid olaraq qalmaqdadır. Beynəlxalq ictimaiyyət erməni işğalına son qoyulmasına, bir milyon məcburi köçkün azərbaycanlı əhalinin öz yurd-yuvalarına qayıtmasına lazımi dəstək göstərməlidir. Ermənistanın müharibə partiyasının əməlləri, qonşu ölkələrin torpaqlarını işğal etmək niyyətləri qətiyyətlə pislənməlidir.

İşğalçılıq, etnik təmizləmə və etnik nifrət XXI əsrin ideologiyası ola bilməz və olmamalıdırİşğalçılıq və etnik təmizləmə ideologiyasına qarşı yalnız beynəlxalq birlik və həmrəylik dura bilər və durmalıdır. Buna görə də biz sizi Azərbaycanın öz torpaqlarını işğaldan azad etmək, ərazi bütövlüyünü və əhalisinin təhlükəsizliyini təmin etmək istiqamətində ədalətli mübarizəsini dəstəkləməyə çağırırıq."- YAP-ın beynəlxalq siyasi partiya təşkilatlarına, dunya ölkələrinin hakim və eləcə də aparıcı siyasi partiyalarına növbəti müraciətində belə deyilir.

Müraciət Yeni Azərbaycan Partiyasının əməkdaşlıq etdiyi Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransına (İCAPP), Mərkəzçi Demokrat İnternasionalına, Avropa Xalqları Partiyasına, Türkiyənin Ədalət və İnkişaf Partiyasına, Rusiyanın "Vahid Rusiya" ("Edinaə Rossiə") Partiyasına, Ukraynanın "Sluqa naroda" Partiyasına, "İsrail bizim evimizdir" Partiyasına, Çin Kommunist Partiyasına, Cənubi Koreyanın Demokrat Partiyasına, Yaponiya Liberal-Demokrat Partiyasına, Vyetnam Kommunist Partiyasına, Qazaxıstanın "Nur Otan" Partiyasına, Macarıstanın "FİDESZ" Partiyasına, eləcə də Pakistanın, Malayziyanın, Banqladeşin, Laosun, İndoneziyanın, Rumıniyanın, Bolqarıstanın, Serbiyanın və digər ölkələrin, bütövlükdə Avropa və Asiyanın 34 ölkədən 54 siyasi partiyalarına, eləcə də bir sıra beynəlxalq təşkilatlara ünvanlanmışdır.

# Hikmət Hacıyev: "Amnesty International" bir daha nə qədər birtərəfli, qərəzli, ikili standartlardan çıxış edən bir təşkilat olduğunu göstərdi

***"Amnesty International" bir daha nə qədər birtərəfli, qərəzli, ikili standartlardan çıxış edən, yalnız kağız üzərində müstəqil və ermənipərəst bir təşkilat olduğunu göstərdi. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Amnesty International"un Ermənistanın Azərbaycana qarşı sentyabrın 27-də törətdiyi hərbi təcavüzlə əlaqədar tamamilə həqiqətdən uzaq açıqlaması ilə bağlı Trend-ə şərhində deyib.***

H.Hacıyev bildirib ki, özünü yalandan qeyri-hökumət təşkilatı adlandıran "Amnesty International", əslində, siyasi sifarişlər yerinə yetirməklə QHT fəlsəfəsinə böyük zərbə vurur: "Biz "Amnesty International"ın bu açıqlamasını rədd edirik. Azərbaycan Silahlı Qüvvələri ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün öz ərazimizdə vuruşur və yalnız legitim hərbi hədəflərə yüksək



dəqiqliklə zərbələr endirir. Ordumuz mülki əhalini və obyektləri hədəfə almır və kasetli sursatlardan istifadə etmir.

Əgər Ermənistan kasetli sursatların istifadəsindən narahatdırsa, o zaman Kasetli hərbi sursatlar haqqında konvensiyaya, ilk növbədə, özü qoşulsun. Lakin bunu etməyən Ermənistan Azərbaycanın mülki əhalisinə qarşı kasetli sursatlardan istifadə edir.

Sual olunur. "Amnesty International" nəyə görə cəbhə zonasından uzaqda yerləşən Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncənin, böyük su anbarı və elektrik stansiyasının, eləcə də digər strateji obyektlərin yerləşdiyi Mingəçevirin mülki əhalisinə qarşı Ermənistanın raket hücumlarını görməzdən gəlir. Sentyabrın 27-dən bu günə kimə Ermənistanın hücumları nəticəsində 27 mülki şəxs həlak olmuş, 141 mülki şəxs isə yaralanmışdır. Bundan əlavə, 63 mülki obyekt və 376 yaşayış evi yararsız hala düşmüşdür. Ermənistanın bu raket hücumları beynəlxalq mülki aviasiya üçün də böyük təhlükə törədir.

Bundan başqa, Azərbaycanı Kasetli hərbi sursatlar haqqında konvensiyaya qoşulmağa çağırmaqla özünü "ədalət carçısı" kimi qələmə verən "Amnesty International" nədən Ermənistanı BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının işğal edilmiş Azərbaycan ərazilərindən geri çəkilməsini tələb edən qətnamələrini icra etməyə çağırmır. Bu saxtakar təşkilat Azərbaycan cəmiyyətində ikrah doğurur. "Amnesty International" və bu qəbildən olan "qeyri-hökumət təşkilatları"nın fəaliyyətinə ən düzgün qiyməti sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi müzakirələrində çıxışı zamanı Prezident İlham Əliyev vermişdir".

# Seneqal vətəndaşı Azərbaycan Prezidentinə yazır: Biz Seneqaldan Sizinlə tam həmrəyliyimizi, yanınızda olduğumuzu bəyan edirik

***Biz Seneqaldan Sizinlə tam həmrəyliyimizi, yanınızda olduğumuzu bəyan edirik. AZƏRTAC xəbər verir ki, bu fikir Seneqalın "Xalq uğrunda Birlik" partiyasının sədri, xüsusi işlər üzrə səfir, Seneqal Prezidentinin xüsusi işlər üzrə müşaviri, Əl-Mədinə təbliğat qrupunun sədri və baş müdiri Şeyx Məhəmməd Əl-Mənsur Ənyasın Azərbaycan Prezidenti İlham Əliyevə məktubunda yer alıb. Məktubda deyilir: "Zati-aliləri cənab İlham Əliyev, möhtərəm cənabınıza Allahın salamı olsun.***

Ermənistan tərəfindən Azərbaycan torpaqlarında törədilən açıq-aşkar cinayətlərlə müşayiət olunan son xəbərləri böyük təəssüf və ürək ağrısı ilə izlədik. Harada olmağımızdan asılı olmayaraq, var qüvvəmizlə Sizin - qardaşlarımızın yanında olmaq, ölkənizə qarşı müharibədə haqlarınızı və torpaqlarınızı qoruyarkən Sizə dəstək vermək bizim müsəlmanlıq borcumuzdur. "Əgər Allah sizə yardım edərsə, heç kəs sizə qalib gələ bilməz" (Quran, Al İmran, 160). Şükürlər olsun Allaha, bu gün Siz Vətəninizi müdafiə etməklə özünüzü iki xoş əməldən biri qarşısında qoymusunuz: zəfər və ya da şəhadət. Ağlı başında, bəsirətli insanlar Sizin mövqeyinizin ədalətli olduğunu, müdrik addımlarınızı, səbrinizi və sülh məramınızı görürlər. Biz Seneqaldan Sizinlə tam həmrəyliyimizi, yanınızda olduğumuzu bəyan edir, Allahın düşmənlərinizə qarşı Sizə kömək olması, gücünüzü artırması, bütün müsəlmanların izzəti və fəxri olaraq qalmağınız üçün dua edirik. Qələbəyə yaxın olduğunuzu bəyan edərək Sizə "Davam edin, Allah sizinlədir!" deyirəm. Bəyan edirik ki, Siz istədiyiniz vaxt yanınıza gələrək ölkənizi qorumaq, zəfərinizi yaxınlaşdırmaq üçün müharibəyə qatılmağa hazırıq. Allahın nəzərləri üzərinizdə olsun! Bir daha Sizinlə həmrəy olduğumuzu və Sizi dəstəklədiyimizi bəyan edərək, Allahdan Sizə zəfər, təhlükəsizlik və əmin-amanlıq bəxş etməsini diləyirik".

# Türkiyəli general-mayor Prezidentə yazır: Ermənistanın təcavüzünə qarşı başladığınız mübarizə bizi qürurlandırdı

***Ermənistanın son vaxtlar həyata keçirdiyi təcavüzə qarşı başladığınız mübarizə bizi qürurlandırdı. AZƏRTAC xəbər verir ki, bu sözlər Türkiyə Ehtiyatda olan Zabitlər Dərnəyinin sədri, ehtiyatda olan general-mayor Namik Kamal Çalışkanın Azərbaycan Prezidenti İlham Əliyevin məktubunda yer alıb. Məktubda deyilir:***

"Hörmətli cənab Prezident, bir kökə mənsub olmaqdan qürur duyduğumuz böyük türk birliyinin azad və müstəqil bir dövləti olan Azərbaycan Respublikası mərhum liderimiz Heydər Əliyevin "bir millət, iki dövlət" sözləri ilə ifadə edildiyi kimi həm də bizim Vətənimizdir. Bundan əlavə, ulu öndər Mustafa Kamal Atatürkün dediyi kimi "Azərbaycanın sevinci sevincimizdir, kədərimiz kədərimizdir". Dağlıq Qarabağ da daxil olmaqla torpaqlarınızın bir hissəsini işğal edən ermənilər Birləşmiş Millətlər Təşkilatı və ATƏT-in qərarlarına baxmayaraq bu işğalı davam etdirirlər. Onların mülki əhaliyə qarşı insanlığa sığmayan hərəkətləri qəbul edilə bilməz. Bu işğala və Ermənistanın son vaxtlar həyata keçirdiyi təcavüzə qarşı başladığınız mübarizə bizi qürurlandırdı. Bu qəti mübarizənizdə qələbə qazanacağınıza, illərdir davam edən haqsız işğala son qoyacağınıza, münaqişəni sülh yolu ilə həll etmək istəməyən Ermənistanı və onların havadarlarını sülhə məcbur edəcəyinizə əminəm. Türkiyə Respublikası və türk xalqı hər zaman Azərbaycana qardaşdır. Bu çərçivədə hökumətimizin elan etdiyi dəstək iradəsi xalqımızın da iradəsidir. Türkiyə Ehtiyatda olan Zabitlər Dərnəyi olaraq Azərbaycanı sona qədər dəstəkləyirik. Hər zaman və hər yerdə Azərbaycan Ordusuna hər cür töhfə verməyə hazır olduğumuzu bəyan edirik. Bu müqəddəs mübarizədə şəhid olan qardaşlarımıza mərhəmət və qazilərimizə təcili şəfa diləyirik. Bütün xalqınıza başsağlığı verir, ehtiramımızı bildiririk".



## Mövlud Çavuşoğlu: "Dünya haqlı tərəf olan Azərbaycanı dəstəkləməli və beynəlxalq hüququn yanında olmalıdır"



Dağlıq Qarabağ münaqişəsi ilə bağlı otuz ildir eyni çağırışlar edilir. Həmsədrlərlə dəfələrlə görüşmüşəm. İşğalçı ilə Azərbaycana eyni münasibət göstərirlər. Ermənistana Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal çıx deyirlərmi? Bunun belə davam etməyəcəyini bütün dünya anlamalıdır. Müvafiq qərarlara baxmayaraq, Azərbaycanın işğal olunmuş torpaqları azad edilməyib. Amma hər zaman hücum edən Ermənistan olub. Öz torpaqlarını azad etmək üçün mübarizə aparan Azərbaycan isə mülki əhalinin yaşadığı obyektləri hədəfə almır. Çətin vəziyyətə düşən Ermənistan Gəncəni, Tərtəri, Xızını atəşə tutur. Bu, müharibə cinayətidir. Bu sözləri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu azərbaycanlı həmkarı Ceyhun Bayramovla görüşdən sonra keçirilən brifinqdə deyib. Mövlud Çavuşoğlu bildirib ki, bütün çağırışların hamısı atəşkəsə istiqamətlənib. Hamı atəşkəsə çağırışı edir. Atəşkəs indiyədək olub və nəticəsi nə olub? Qısa müddətdən sonra ermənilər yenə hücum ediblər. Atəşkəs elan edilsin, amma nəticəsi nə olacaq?

"Biz Azərbaycanla iki dövlət, bir millətik. Biz Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik. Bu məsələdə ikili standartlar olmamalıdır. Dünya haqlı tərəf olan Azərbaycanı dəstəkləməli, beynəlxalq hüququn yanında olmalıdır", - deyə Türkiyənin Xarici İşlər naziri vurğulayıb.

## Hüseyn Paşayev: YAP-ın rayon, şəhər təşkilatları və fəalları Silahlı Qüvvələrə Yardım Fonduna dəstək aksiyasını davam etdirir



Yeni Azərbaycan Partiyasının (YAP) rayon, şəhər təşkilatları və fəalları Silahlı Qüvvələrə Yardım Fonduna dəstək aksiyasını davam etdirir. AZƏRTAC xəbər verir ki, bunu Yeni Azərbaycan Partiyasının mətbuat xidmətinin rəhbəri Hüseyn Paşayev deyib.

Hüseyn Paşayev Yeni Azərbaycan Partiyasının İcra Katibliyi tərəfindən Silahlı Qüvvələrə Yardım Fonduna 100 min manat vəsaitin köçürülməsindən sonra bu vətənpərvər aksiyanın partiyanın rayon, şəhər təşkilatları tərəfindən coşqu ilə davam etdirildiyini bildirib. Qeyd edib ki, təkcə rayon təşkilatlarının deyil, sıravi partiya üzvlərinin də fərdi şəkildə iştirak etdiyi bu aksiyanın ali məramı Milli Ordumuza həm də mənəvi dəstəyin ifadəsidir.

O deyib : Azərbaycan Ordusu işğal altındakı ərazilərimizin azad olunması istiqamətində rəşadətli döyüşlər aparır. Biz çox yaxın zamanlarda torpaqlarımızın işğaldan təmizlənməsi sevincini bütün xalqımızla birgə yaşayacağıq. Bu gün hər bir Azərbaycan vətəndaşı Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevə, onun təmkinlə, müdrikliklə və uzaqgörənliklə qurduğu Azərbaycan Ordusunun gücünə, iradəsinə, əsgərlərimizin qəhrəmanlığına və yüksək döyüş ruhuna əmindir. Bu gün hər birimiz Ordumuzla bərabərik, bir yerdəyik, hər addımda ona mənəvi dəstəyimizi ifadə edirik.

Qarabağ Azərbaycandır!

Biz birlikdə güclüyük!".

## Dövlət Təhlükəsizliyi Xidməti Qarabağda döyüşən kürd terrorçularının səsini yayıb

Ermənistan Azərbaycan Respublikasına qarşı hərbi təcavüzündə xarici muzdlulardan, o cümlədən İraq və Suriya ərazisindən gətirilmiş kürd terrorçu qruplaşma üzvlərindən fəal istifadə edir. AZƏRTAC xəbər verir ki, bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) ictimai əlaqələr şöbəsinin yaydığı məlumatda bildirilib. Məlumatda ölkəmiz əleyhinə hərbi əməliyyatlarda iştirak edən PKK ilə əlaqəli terrorçuların radio danışıqlarının ələ keçirildiyi qeyd olunub. Həmin səs yazılarında terrorçular erməni tərəfində vəziyyətin ağır və itkilərin çox olması, azərbaycanlılar tərəfindən dronların effektli tətbiqi barədə müzakirələr aparır, ermənilərin məlumatlarına aldanaraq münaqişə bölgəsinə gəldiklərindən peşmançılıq keçirdiklərini bildirirlər. DTX həmin materialları təqdim edib.

## "Ermənistan "İsgəndər"i tətbiq edəcəyi halda adekvat tədbir görəcəyik"



Oktyabrın 6-da Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xüsusi xidməti müşavirə keçirilib. "Qafqazinfo" xəbər verir ki, müşavirədə aparılan əks-hücum əməliyyatında hazırda mövcud olan vəziyyət təhlil olunaraq düşmən qüvvələrinin planlı, məqsədyönlü və ardıcıl darmadağın edilməsinin davam etdirilməsi tapşırılıb.

Müdafiə naziri qoşunlara azad olunmuş ərazilərdə həyati əhəmiyyətli və ilkin zəruri tədbirlərin görülməsinə göstəriş verib. Müdafiə naziri düşmən tərəfindən "İsgəndər" əməliyyat-taktiki raket komplekslərinin tətbiq olunacağı halda adekvat tədbir görüləcəyini bildirib. Nazir Azərbaycan Ordusuna arsenalındakı yüksək dəqiqlikli və böyük dağıdıcı qüvvəyə malik silah növlərini tətbiq etməklə düşmən tərəfinin hərbi-strateji infrastrukturuna böyük zərbələr endirməyi planlaşdırmağı əmr edib.

## Ərdoğan və Angela Merkel Qarabağ münaqişəsini müzakirə ediblər



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Almaniya Kansleri Angela Merkel arasında videoformatla görüş keçirilib. AZƏRTAC xəbər verir ki, məlumatı Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr İdarəsi yayıb. Bildirilib ki, görüşdə Türkiyə-Almaniya, Türkiyə-Avropa İttifaqı əlaqələri, Şərqi Aralıq dənizi mövzusu, Liviyadakı vəziyyət və Ermənistan-Azərbaycan münaqişəsi başda olmaqla regional məsələlər müzakirə olunub.

Dövlət başçısı qeyd edib ki, Azərbaycanın Ermənistanın işğalı altında olan torpaqları ilə bağlı problemin uzunmüddətli həlli üçün BMT-nin qərarlarının yerinə yetirilməsi və beynəlxalq hüququn tələblərinə əməl edilməsi mütləqdir. Eyni zamanda, Liviyadakı atəşkəsin yaratdığı fürsətlərin əldən verilməməsinin vacibliyi də Kansler Angela Merkelin diqqətinə çatdırıb.

Prezident Rəcəb Tayyib Ərdoğan vurğulayıb ki, Avropa İttifaqı Liderlər Zirvəsinin qəbul etdiyi məlum açıqlama münasibətlərdəki problemləri həll etmək, dialoq və əməkdaşlığa əsaslar yaradacaq elementlərdən kasaddır. Türkiyənin xoşniyyətli mövqeyinə qarşı Avropa İttifaqı Yunanıstanın və Cənubi Kipr yunan rəhbərliyinin reaksiya və şantajlarına boyun əydiyini ifadə edən Prezident Rəcəb Tayyib Ərdoğan Avropanın böyük maraqlarının İttifaqın bir sıra üzvlərinin şəxsi maraqlarına qurban verməməsinin əhəmiyyətini vurğulayıb.

## Ukraynanın Sumı Vilayət Deputatlar Şurasının sədri Prezidentə məktubunda yazır: **Azərbaycan ərazi bütövlüyü uğrunda ədalətli mübarizə aparır**

Bu gün Azərbaycan ərazi bütövlüyü uğrunda ədalətli mübarizə aparır. AZƏRTAC xəbər verir ki, bu fikir Ukraynanın Sumı Vilayət Deputatlar Şurasının sədri Vladimir Tokarın Prezident İlham Əliyevə məktubunda yer alıb.

Məktubda deyilir: "Hörmətli cənab Prezident, Ukrayna ilə Azərbaycan arasında daim dost və tərəfdaşlıq münasibətləri olub. Azərbaycan dost bir ölkə kimi Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü dəstəklədi və dəstəkləməyə davam edir. Odur ki, bu gün Azərbaycan ərazi bütövlüyü üçün ədalətli bir mübarizə apararkən, şəxsən mən uzun müddət Bakıda və ölkənin digər şəhərlərində yaşamış bir insan kimi Sizi və bütün Azərbaycan xalqını dəstəkləyirəm. Axı, Dağlıq Qarabağ beynəlxalq səviyyədə Azərbaycanın bir hissəsi kimi tanınıb. Sumı Vilayət Deputatlar Şurasının sədri, həmçinin bir siyasətçi kimi hesab edirəm ki, Azərbaycanla Ermənistan arasında münaqişə sülh yolu ilə həll olmalıdır. Ermənistanın beynəlxalq hüququ, sülh danışıqlarını açıq şəkildə pozan və insan itkisi ilə nəticələnən hücumlarını qınayıram. Sülhsevər Azərbaycan və Ukrayna xalqlarına bu çətin lokal münaqişələrdən ən qısa zamanda xilas olmağı və ölkələrində sülhü və sabitliyi bərpa etməyi arzulayıram".

## "Ermənistan həm diplomatiyada, həm də döyüşlərdə məğlub olmağa məhkumdur"



"Ermənistanın növbəti hücumu zamanı düşmənin qarşısı Milli Ordumuz tərəfindən qətiyyətlə alındı və həyata keçirilən əks-hücum əməliyyatları zamanı düşmən xeyli sayda itkilər verərək geri çəkilməyə məcbur oldu. Hazırda, Cəbrayıl şəhəri və ətrafında olan kəndlər, habelə Füzuli və Tərtər rayonlarının böyük hissəsi işğaldan azad edilib, düşmənə məxsus xeyli sayda texnika və döyüş sursatı ələ keçirilib. Cəbhə boyu döyüş əməliyyatları tam sürətlə davam etdiyi bir vaxtda Ermənistan tərəfi uduzduğunu görərək öz xislətinə uyğun olaraq, faşizm mahiyyətini ortaya qoyur, yenidən təxribatlara əl atır, mülki əhalini hədəfə alır". SİA-nın məlumatına görə, bunu açıqlamasında Milli Məclisin vitse-spikeri Adil Əliyev deyib.

Onun sözlərinə görə, ağır artilleriyadan sivil insanlara və mülki obyektlərə qarşı istifadə edir: "Bu barbarlıqdır və Çenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozmaqdır. Xatırlatmaq istəyirəm ki, Ermənistan hakimiyyəti və Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaradılmış qondarma xunta rejimi son iki il idi ki, müxtəlif təxribatlar törədirdi. Heç bir siyasi savadı və idarəetmə qabiliyyəti olmayan Nikol Paşinyan baş nazir kimi Ermənistanda hakimiyyətə gəldikdən sonra sülh danışıqlarını pozmaq, işğalçılıq siyasətini genişləndirmək üçün hər cür təxribata əl atdı. Davam edən sülh danışıqlarının fonunda "Soros" fondunun dəstəyi ilə Ermənistan hakimiyyətini ələ keçirən Nikol Paşinyanın 7 absurd şərt irəli sürməsi və cəbhə boyu təxribatlara başlaması isə müharibənin başlanmasını qaçılmaz etdi. O, faktiki olaraq sülh danışıqlarının davam etməsindən imtina etdi. Vəziyyət o yerə çatdı ki, hətta ATƏT-in Minsk qrupunun həmsədrləri belə Paşinyanın irəli sürdüyü sərsəm bəyanatların sülh danışıqlarının bütün prinsiplərinə zidd olduğunu aşkar şəkildə etiraf etdilər. Lakin ayrı-ayrı qrupların maraqlarına xidmət edən Ermənistan rəhbərliyi nəinki öz mövqeyini dəyişdirmədi, əksinə verdiyi boş-boş bəyanatlarla Azərbaycan tərəfini qıcıqlandırmağa cəhd etdi. Qondarma rejimin rəhbərinin Şuşada inaqurasiya mərasimi keçirməsi və separatçı rejimin qondarma "parlament"inin Xankəndindən Şuşaya köçürüləcəyini bəyan etməsi İrəvanın cinayətkar rejiminin növbəti təxribatı oldu. Nəhayət, iyul ayında Tovuz rayonunda hərbi təxribatların törədilməsi, daha sonra isə Azərbaycana diversiya qrupu göndərərək təxribatlar törətmək niyyətinə düşməsi Paşinyanın məqsədyönlü addımları və onun rəhbərlik etdiyi ölkənin işğalçı mahiyyətinin daha bir təsdiqi oldu. Təbii ki, danışıqlar prosesinin Ermənistan tərəfinin ciddi səyi nəticəsində dayanmasına beynəlxalq ictimaiyyətin heç bir ciddi reaksiya verməməsi düşməni daha da şirnikləndirdi".

A.Əliyev vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin BMT Təhlükəsizlik Şurasının 75 illiyi bağlı çıxışında bildirdiyi kimi, BMT-nin qətnamələri bəzən saatlar ərzində icra olunmasına baxmayaraq Ermənistan tərəfi bu qətnamələri icra etməkdən 27 ildir ki, imtina edir: "Qətnamələrin tələblərinə riayət etməmək bir yana dursun, davamlı olaraq sərhəd boyu erməni silahlı qüvvələri tərəfindən təxribatlar törədilir. Təbii ki, danışıqlar masasında uduzduğunu görən Nikol Paşinyan növbəti dəfə təxribata əl atdı. Təxribatın qarşısı da rəşadətli ordumuz tərəfindən alındı. Hazırda işğal altında olan torpaqlarımızın düşmən işğalından azad edilməsi istiqamətində əməliyyatlar uğurla davam edir. Bu gün bütün Azərbaycan xalqı bir yumruq kimi öz Prezidentinin ətrafında birləşib və Ali Baş Komandanın əmr və göstərişlərini dərhal icra edir. Sevincimizin həddi-hüdudu yoxdur. Azərbaycan torpağının incilərindən və vacib strateji ərazilərindən sayılan Cəbrayıl rayonu və ətrafında olan bir neçə kənd 27 ildən sonra düşmən tapdağından azad edildi! Azərbaycan Ordusu böyük qələbə qazanmaqla düşməni cəbhəboyu geri çəkilməyə məcbur edir. Düz 1 il bundan əvvəl Azərbaycan Prezidenti Ermənistanın baş nazirinə "Qarabağ Azərbaycandır!" - deyə qürurla cavab vermişdi. Bu gün onun rəhbərlik etdiyi Ordu bu həqiqəti dünyaya sübut edir - "Qarabağ Azərbaycandır!". Beləliklə, Ermənistan həm diplomatiyada, həm də döyüşlərdə məğlub olmağa məhkumdur".

***Aysel Məmmədova***

## Aviqdor Liberman: "Azərbaycan İsrailin etibarlı tərəfdaşıdır"



İsrailin sabiq Müdafiə naziri, politoloq Aviqdor Liberman ITON TV-nin efirində Azərbaycan-İsrail münasibətlərindən danışıb. "Qafqazinfo" xəbər verir ki, Liberman Azərbaycanı İsrailin etibarlı tərəfdaşı adlandırıb:

"Son 25 ildə Azərbaycan həm beynəlxalq arenada, həm də ikitərəfli əlaqələrdə İsrailin etibarlı tərəfdaşı olduğunu göstərdi. Tarixi nöqteyi-nəzərdən də Azərbaycan keçmiş Sovet İttifaqı ölkələri arasında antisemitizmin tamamilə mövcud olmadığı, yəhudilərin özlərini tam hüquqlu hiss etdikləri respublikalardan biridir. Bəlkə də, yeganə respublikadır".

## Pakistan Senatında təmsil olunan partiya rəhbərindən Azərbaycana növbəti dəstək


Leader of the Opposition
Senate of Pakistan
Parliament House Islamabad
30 September 2020

Pakistan İslam Respublikası Senatının Xarici Əlaqələr Komitəsinin sədri Senator Müşahid Hüseyn Seyyid tərəfindən rəsmi tvitter hesabında Azərbaycana dəstək ifadə edən paylaşım edilib. SİA həmin paylaşımı təqdim edir: "Pakistan, Azərbaycanın Ermənistanın təcavüzünə qarşı özünümüdafiə hüququndan istifadə etdiyi üçün hər zaman bu ölkənin yanında olub, necə ki, Azərbaycan da Cəmmu və Kəşmir məsələsində Pakistanın mövqeyini dəstəkləyir. Hər iki məsələ ilə bağlı BMT qətnamələri hələ də icra edilməyib".

Pakistanın əsas müxalifət partiyalarından biri olan Jamiat Ulama İslamın rəhbəri Maulana Fazlurrahman tərəfindən Azərbaycan Respublikasının Pakistandakı səfiri Əli Əlizadəyə ünvanlanmış məktubda deyilir: "Zati-Aliləri, Jamiat Ulama İslam Pakistan erməni təcavüzünə qarşı hazırkı müharibədə qardaş Azərbaycan hökumətinə, xalqına və silahlı qüvvələrinə tam dəstəyini çatdırır. Jamiat Ulama İslamın Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğuna, Azərbaycanın öz ərazilərinə hakim olmaq və xarici qüvvələri öz torpağından çıxarmaq üçün qanuni hüquqa sahib olduğuna inamı qətidir.

Hazırkı vəziyyətdə Pakistan Azərbaycanlı qardaşlarımızla çiyin-çiyinə dayanır və ən əziz dostumuz olan igid Azərbaycan xalqının Prezidentinə və xalqına tam dəstəyini ifadə edir. Cəsur Azərbaycan xalqını təcavüzkar Ermənistana qarşı şücaətli müharibəyə görə yüksək təqdir edirik".

## Müdafiə Nazirliyi düşməndən götürülən hərbi qənimətin videogörüntülərini təqdim edib

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi döyüşlərdə Ermənistan silahlı qüvvələrinin hərbçilərinin atıb qaçdığı və bölmələrimizin məhv etdiyi düşmənin silah və hərbi texnikalarının videogörüntülərini paylaşıb. AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla düşmən qənimətlərinin videogörüntülərini təqdim edir.

# Milli Məclis Madagiz kəndinin Suqovuşan adlandırılmasını təsdiqlədi

***Dünən Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bu gün hər birimizin ürəyinin qürurla dolub-daşdığını bildirib. Qurtuluş savaşı aparan Ordumuz yeni-yeni ərazilərimizi düşməndən təmizləyərək zəfər yürüşünü davam etdirir.***



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dediyi kimi, "Dağlıq Qarabağ bizim torpağımızdır, Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir! Mən heç zaman imkan verməyəcəyəm ki, tarixi Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaradılsın. Bütün imkanlardan istifadə edib öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Biz buna yaxınlaşırıq".

Bu gün döyüş meydanında xalqımızın taleyi və müqəddəratı ilə bağlı məsələnin həll olunduğunu bildirən Sədr deyib: "Mən əminəm ki, qarşıda bizi yeni böyük uğurlar gözləyir. İndiyədək Cəbrayıl şəhəri və həm bu rayonda, həm də digər ərazilərdə çoxlu sayda kənd düşməndən təmizlənib. Kəlbəcərin, Laçının, Zəngilanın, Qubadlının, Şuşanın, işğal altında olan digər torpaqlarımızın azad ediləcəyi gün uzaqda deyil.

Əldə edilən hərbi qələbələr, təəssüf ki, itkisiz başa gəlmir. Azərbaycanın qəhrəman əsgər və zabitləri Vətən torpağını düşməndən xilas etmək üçün ölümün gözünə dik baxırlar. Bununla birlikdə, döyüş meydanında duruş gətirə bilməyən xain düşmən öz terrorçu mahiyyətini göstərərək, mülki obyektləri, yaşayış məntəqələrini raket atəşinə tutur. Dinc əhali arasında həlak olan və yaralananlar var". Milli Məclisin Sədri bütün şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza şəfa diləyib.

Sonra Sahibə Qafarova diqqətə çatdırıb ki, bu gün Azərbaycan xalqı dövlətimizin başçısının və Ali Baş Komandanın ətrafında sıx birləşib, hərb tariximizi yeni hünər və qələbələrlə zənginləşdirən müzəffər Ordusunun yanındadır. Əminəm ki, bu birlik, bu dəstək, bu qüvvət sayəsində tezliklə Qarabağın hər yerində şanlı Azərbaycan bayrağı dalğalanacaq. Qəhrəman Ordumuza, mətin xalqımıza, müdrik rəhbərimizə eşq olsun!

Milli Məclisin Sədri bir məlumatı da nəzərə çatdırıb ki, parlamentin deputatları, Aparatın və İşlər İdarəsinin əməkdaşları dövlətimizin başçısının və Birinci vitse-prezidentimizin başladıqları aksiyaya qoşularaq, Silahlı Qüvvələrə Yardım Fonduna vəsait köçürüblər. Sədrin çıxışı alqışlarla qarşılanıb.

İclasın gündəliyi təsdiq edildikdən sonra deputatlar cari məsələlər barədə fikirlərini bildiriblər.

Çıxış edən deputatlar Cavanşir Feyziyev, Naqif Həmzəyev, Rəşad Mahmudov, Emin Hacıyev, Əli Məsimli, Müşfiq Cəfərov, Səttar Möhbalıyev, Cavid Osmanov, Azər Badamov, Bəhruz Məhərrəmov, Hikmət Məmmədov, Soltan Məmmədov, Məlahət İbrahimqızı, Zahid Oruc, Erkin Qədirli Ermənistanın Azərbaycana qarşı törətdiyi təxribatlar, ölkəmizin haqq savaşı, şanlı Ordumuzun zəfər yürüşü, ATƏT-in Minsk qrupunun fəaliyyəti, Fransanın Ermənistan-Azərbaycan münaqişəsindəki mövqeyi ilə bağlı fikirlərini ifadə ediblər.

İclasda çıxış edən Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirib ki, erməni lobbisi Amerika Birləşmiş Ştatları Konqresinin Nümayəndələr Palatasında Azərbaycan əleyhinə 1165 saylı qətnamə layihəsinin müzakirəyə çıxarılmasına hazırlaşır. Bu işə Konqresin erməni qrupunun iki həmsədri rəhbərlik edir. Həmin şəxslərin hər ikisi demokratdır, onlar erməni soyqırımı üzrə aktın sponsoru olublar. Onlardan biri Cek Spear 1165 saylı qətnamə ilə bağlı Nümayəndələr Palatasının 46 üzvündən dəstək alıb. Ümumiyyətlə isə Konqresin erməni qrupunun 116 üzvü var.

Adil Əliyev deyib ki, hazırda ABŞ-da yaşayan Azərbaycanlı icmasının üzvləri ABŞ Nümayəndələr Palatası tərəfindən 1165 saylı qətnamənin qəbulunun dayandırılması üçün imzatoplama kampaniyasına başlayıblar. Lakin bu iş lazımi səviyyədə deyil. Adil Əliyev ABŞ-da 40 mindən çox azərbaycanlının yaşadığını nəzərə alaraq onları bu məsələdə daha fəal olmağa çağırıb. Sədr müavini Milli Məclisin deputatlarını da bu məsələyə kömək göstərməyə səsləyib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, Tərtər rayonunun Madagiz kəndi erməni işğalından azad edilən kimi Prezident İlham Əliyev onun tarixi adını geri qaytararaq həmin kəndi Suqovuşan adlandırıb. Bu gün Milli Məclis həmin məsələni qanuniləşdirəcək. Qanun layihəsi bir oxunuşda təsdiqlənəcək.

"Azərbaycan Respublikasının Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması haqqında" qanun layihəsi barədə məlumat verən Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov bildirib ki, məsələ komitənin iclasında müzakirə olunub. Komitə üzvləri məsələni yekdilliklə Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə ediblər. Qanun layihəsi səsə qoyularaq təsdiqlənib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, gündəliyin növbəti 14 məsələsi parlamentin oktyabrın 2-də keçirilən iclasında ikinci oxunuşda müzakirədən keçmiş qanun layihələridir. Bu gün həmin qanun layihələri üçüncü oxunuşda müzakirəyə təqdim edilib. Bildiyiniz kimi, üçüncü oxunuşda qanun layihəsinin mətninə dəyişiklik edilmir.

Əvvəlcə Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Dəmir Yollarının 140 illiyi (1880-2020)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda müzakirəyə təqdim edib. Qanun layihəsinə əsasən, Azərbaycan Dəmir Yollarının 140 illiyi ilə əlaqədar olaraq təsis edilən yubiley medalı ilə vəzifələrini nümunəvi icra edən, fəaliyyətində yüksək nəticələr göstərən, dəmir yolu nəqliyyatı sahəsində çalışan işçilər, dəmir yolu nəqliyyatı sahəsinin inkişafında və təkmilləşdirilməsində xüsusi xidmətləri olan şəxslər, habelə beynəlxalq tərəfdaşlar təltif olunacaqlar. Qanun layihəsi üçüncü oxunuşda səsə qoyularaq qəbul edilib.

Sonra "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin 10 illiyi (2012-2022)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə də üçüncü oxunuşda baxılıb. Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, bu medalla həqiqi hərbi xidmət keçən və xidməti vəzifələrini nümunəvi yerinə yetirən zabit və gizirlər, müddətdən artıq hərbi xidmət keçən hərbi qulluqçular, ehtiyatda olan və istefaya buraxılmış hərbçilər, həmin orqanda səmərəli fəaliyyət göstərən mülki işçilər, habelə bu sahədə xüsusi xidmətləri olan digər şəxslər təltif ediləcəklər. Sənəd səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini şərh edib. Deputat bildirib ki, Azərbaycan Prezidenti 2018-ci il dekabrın 28-də tikinti obyektlərinə tikintiyə icazə və obyektin istismarına icazə verilməsinin sadələşdirilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb. Tikintiyə dövlət nəzarəti prosedurlarında nəzərdə tutulan sadələşdirmələrlə əlaqədar müvafiq qanunların təkmilləşdirilməsi ilə əlaqədar təkliflərin hazırlanması barədə Nazirlər Kabinetinə tapşırıq verilib. Təqdim edilən qanun layihəsi həmin təkmilləşdirilməyə dair təklifləri nəzərdə tutur. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

"Dövlət rüsumu haqqında" Qanuna təklif edilən dəyişikliklər barədə danışan İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, qanun layihəsi barədə komitənin rəyi müsbətdir. Qeyd olunub ki, qanun layihəsinə təklif olunan dəyişikliklər minik avtomobillərinin özgəninkiləşdirilməsi haqqında müqavilələrin dövlət qeydiyyatına alınmasına görə dövlət rüsumunun məbləğinin hər il üçün təsdiqlənməsi mexanizmindən imtina olunmasını və rüsumların daimi əsasda müəyyən edilməsini nəzərdə tutur. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin üçüncü oxunuşu barədə məlumat verib. Bildirib ki, qanun layihəsi daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud uşağa və ya birinci dərəcə əlilliyi olan şəxsə baxan, onunla birlikdə yaşayan valideynin, arvadın (ərin), himayəçinin və ya qəyyumun gəlirlərinin gəlir vergisindən azad olunan hissəsinin artırılaraq 200 manat məbləğində müəyyən edilməsini, güzəşt tətbiq olunan kateqoriyaya sağlamlıq imkanları məhdud uşaqları övladlığa götürən şəxslərin də aid edilməsini nəzərdə tutur. Sənəd səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

Sonra Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə məsələnin üçüncü oxunuşu ilə bağlı bildirib ki, layihə "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli Fərmanına uyğun olaraq hazırlanıb. Düzəliş övladlığa götürülən uşaqların təhsil xərclərinin dövlət vəsaiti hesabına ödənilməsini ehtiva edir. Bu, ölkəmizdə övladlığa götürməni, xüsusilə az və orta təminatlı ailələr tərəfindən valideyn himayəsindən məhrum olan uşaqların övladlığa götürülməsini təşviq edəcək. Sənəd səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) məlumat verib ki, bu qanun layihəsi də valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsinin stimullaşdırılması məqsədi daşıyır. Təklif olunan qanun layihəsinə əsasən övladlığa götürülmüş uşaqların dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsili müəssisələrində və ali məktəblərin magistratura səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət hesabına ödənilməsi nəzərdə tutulur. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

"Sosial müavinətlər haqqında" Qanuna təklif olunan dəyişikliklərlə bağlı qanun layihəsini (üçüncü oxunuş) şərh edən Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı bildirib ki, bu sənəd də "Övladlığa götürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Prezidentin 2018-ci il 10 dekabr tarixli Fərmanına uyğun olaraq, valideyn himayəsindən məhrum uşaqların övladlığa götürülməsini stimullaşdırmaq və uşaqları övladlığa götürən ailələri dəstəkləmək məqsədilə hazırlanıb. Sənəd səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

***Rəfiqə Kamalqızı***

# “Lavanguardia”: Azərbaycan Ermənistana xəbərdarlıq edir, yalnız işğala son qoyulanda sülh bərqərar olacaq


AZERBAIYAN ARMENIA (ENTREVISTA)

Azerbaiyán advierte a Armenia que sólo habrá paz cuando acabe la ocupación

REDACCIÓN
05/10/2020 15:47

Farid Gajramánov

Bakú 5 oct (EFE).- El ministro de Asuntos Exteriores de Azerbaiyán, Jeihun Bayrámov, afirmó hoy que sólo habrá paz duradera en la región de Nagorno Karabaj cuando acabe la ocupación armenia de los territorios azerbaiyanos.

"Cuanto antes Armenia reconozca esta realidad, antes se resolverá el conflicto y los pueblos de la región se beneficiarán de las perspectivas de cooperación", dijo el jefe de la diplomacia azerbaiyana en una entrevista con Efe.

Reiteró que "la ocupación militar no es una solución y jamás producirá el resultado político deseado por Armenia", en alusión a

***İspaniyanın ən qədim nəşrlərindən olan “Lavanguardia” qəzetində Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun İspaniyanın EFE informasiya agentliyinə müsahibəsi “Azərbaycan Ermənistana xəbərdarlıq edir, yalnız işğala son qoyulanda sülh bərqərar sülh olacaq” başlığı altında dərc edilib.***

AZƏRTAC əbər verir ki, nazirin sözlərinə görə, Dağlıq Qarabağda möhkəm sülh yalnız o vaxt bərqərar ola bilər ki, ermənilər Azərbaycan ərazilərini işğal etməkdən əl çəksinlər. Nazir deyib: “Ermənistan bu reallığı nə qədər tez anlasa, münaqişə bir o qədər tezliklə nizamlanacaq və region xalqları əməkdaşlıq perspektivindən bəhrələnəcəklər”.

C.Bayramov qeyd edib ki, münaqişənin həlli yalnız Helsinki Yekun Aktında təsbit olunmuş beynəlxalq hüquq normaları əsasında, Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınmış sərhədləri daxilində onun suverenliyinin və ərazi bütövlüyünün tamamilə təmin edilməsi şərti ilə mümkündür.

Nazir BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması barədə 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsini xatırladıb.

Ceyhun Bayramov deyib ki, Bakı münaqişənin beyəlmilləşməsində maraqlı deyil. Başqa sözlə desək, o, üçüncü ölkələrin bu münaqişəyə müdaxiləsinin qəti əleyhinədir. Diplomat daha sonra deyib: “Bu, Ermənistanın məqsədidir, Ermənistan Türkiyənin bu münaqişədə iştirakı barədə yalan informasiya yayır. Ermənistan bu əsassız ittihamları yaymaqla üçüncü ölkələri cəlb etməyə çalışır”.

Uzun illər boyu ağır demoqrafik böhran içində olan, öz silahlı qüvvələrini təchiz edə bilməyən Ermənistandan fərqli olaraq Azərbaycanın tamdəyərli, güclü və çox peşəkar ordusu var, buna görə Azərbaycanın kənar qüvvələrin cəlb edilməsinə ehtiyacı yoxdur. Nazir vurğulayıb ki, Azərbaycan ordusu öz suveren torpağında vuruşur və erməni tərəfin təxribatlarına qarşı müvafiq tədbirlər görür. Azərbaycan Prezidenti İlham Əliyev hərbi əməliyyatlara son qoyulması üçün şərt kimi erməni qoşunlarının Azərbaycan ərazisindən çıxarılmasının konkret qrafikinə əməl olunmasını tələb edib.

# Hikmət Babaoğlu: “ATƏT-in Minsk qrupunun yeni həmsədrlərindən biri Türkiyə olmalıdır”

***“Çox tarixi mühüm günlər yaşayırıq. Hər şeydən öncə bu sevinci, bu qələbəni xalqımıza yaşadan Ali Baş Komandanımıza və Azərbaycanın müzəffər ordusuna təşəkkür edirik. Əslində Azərbaycan Prezidenti Azərbaycan xalqın müraciətində bildirdi ki, bu gün Azərbaycan yeni tarix yazır.***



Bu tarix Azrbaycanın millət olaraq yenidən doğuluşu tarixidir. Bu təkcə bizim torpaqlarımızın işğaldan azad olunması hadisəsi deyil. Bu ruhumuzun millət olaraq əsarətdən qurtuluşu tarixidir. Tarixi yaddaşımızın bərpası tarixidir. Bu sevincli günlərdə ordumuza dualar edir, yeni zəfərlər arzulayırıq”. SİA-nın məlumatına görə, bunu deputat Hikmət Babaoğlu Milli Məclisin bu gün keçirilən plenar iclasında deyib.

Deputat bildirib ki, bu proseslərdə önə çox mühüm bir məsələ var: “Azərbaycan ordusunun cəbhədə azad hərəkətini təmin etmək üçün bu vaxta qədər böyük diplomatik-siyasi işlər görülüb. Qlobal ictimai rəy Azərbaycanın leyhinə dəyişdirilib. Bu gün bəzi istisnalar olmaqla heç kim Azərbaycanın haqqlı mövqeyini qınaya bilmir. Təəssüf ki, bu proseslərdə problemin həllinə töhfə verməli olan ATƏT-in Minsk Qrupunun həmsədrlərinin fəaliyyəti xüsusən Fransanın fəaliyyəti təəccüb və təəssüf doğurur. Fransa pezidentinin “biz icazə vermərik ki, Qarabağ yenidən fəth olunsun, biz sona qədər müqavimət göstərəcəyik” bəyanatınan sonra özünə hörmət edən dövlət başçısı kimi Fransa həmsədrlikdən istefa verməlidir. Əgər o müstəqil bir dövlət başçısı kimi bu fikirləri səsləndirirsə buyursun, ancaq tərəfsizliyini itirdiyi halda ATƏT-in Minsk Qrupunun həmsədri olan bir ölkənin başçısı kimi bu bəyanatı verməməli idi”.

H.Babaoğlu vurğulayıb ki, bu bəyanatdan sonra Fransa Azərbaycan əleyhinə lobbiçilik etməyə başlayıb və digər həmsədrləri radikal qərarlar qəbul etdirməyə çalışır, üzvü olduğu beynəlxalq təşkilatlarda Azərbaycan əleyhinə qərarlar verdirməyə çalışır: “Bu yolverilməzdir. Əgər Fransanın prezidenti bunu bir neçə yüz min erməninin səsini almağa görə edirdisə, doğru etmirdi. Çünki fransız xalqı beynəlxalq hüququ, ali dəyərləri mənimsəmiş xalqdır. Əslində Makron bu qərarlı mövqeyi ilə məhz fransız xalqının səsini itirmiş oldu. Düşünürəm ki, bundan sonra bizi diplomatik müstəvidə daha çətin və gərgin danışıqlar prosesi gözləyir. Biz buna hazırlaşmalıyıq və ATƏT-in Minsk Qrupunun yeni həmsədrlərindən biri Türkiyə olmalıdır”.

***Aysel Məmmədova***




## “Bakcell”dən Silahlı Qüvvələrə Yardım Fonduna ümumilikdə 1,5 mln. manat ianə

Bakcell şirkəti Silahlı Qüvvələrə Yardım Fonduna daha 1 milyon məbləğində vəsait köçürüb.

Qeyd edək ki, Şirkət cəbhədə Ermənistanın təcavüzünün qarşısının alınması və işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi uğrunda şücaətlə irəliləyən Ordumuza dəstək üçün bir neçə gün əvvəl də Ordumuza 500 min manat ianə etmişdir.

Beləliklə, Bakcell tərəfindən Silahlı Qüvvələrə Yardım Fonduna göstərilən maddi dəstəyin ümumi məbləği 1 milyon 500 min manat oldu.

Bu məbləğ Bakcell şirkətinin daxil olduğu ”NEQSOL Holding” tərəfindən ayrılmış 2.5 milyon manat məbləğində ümumi büdcə çərçivəsində fondun hesabına köçürülüb.

Bakcell şirkətinin kollektivi vətən uğrunda qəhrəmancasına vuruşan xilaskar əsgərlərimiz qarşısında baş əyir və onlarla qürur duyduğunu bildirir. Sarsılmaz şücaətə malik hərbi qüvvələrimizin zəfər xəbərlərini səbirsizliklə gözləyirik. Qarabağ Azərbaycandır!

Qeyd edək ki, Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli Fərmanı ilə yaradılıb. Fondun əsas maliyyə mənbəyi hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan vəsaitdir.

# Tural Gəncəliyev: ABŞ-da yaşayan soydaşlarımız 1165 saylı qətnamənin qəbuluna mane olmalıdırlar

***Təmas xətti boyunca gedən döyüşlərdə Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatları, 30 ilə yaxındır düşmən tapdağı altında qalan torpaqlarmızın işğaldan azad edilməsi bütün ermənilərin və onlara havadarlıq edən dairələrin yuxusunu ərşə çəkib. Azərbaycan Ordusunu dayandırmaq məqsədilə başda Ermənistanın baş naziri Nikol Paşinyan olmaqla bütün rəhbər şəxslər öz səviyyələrində müxtəlif ölkələrin prezidentlərinə və beynəlxalq təşkilatlara çoxsaylı müraciətlər edirlər.***

Bu işdə xaricdə yaşayan erməni lobbisi xüsusi fəallıq nümayiş etdirir. Əldə etdiyimiz məlumata görə, ABŞ-da yaşayan erməni lobbisi Konqresdə Nümayəndələr Palatasının müzakirəsinə 1165 saylı qətnamə təqdim etməyi planlaşdırır. Qətnamənin həmmüəlliflərindən olan Jackie Speier məsələni Nümayəndələr Palatasının müzakirəsinə çıxarmaq üçün 46 Palata üzvünün dəstək imzasını alıb.



AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri, deputat Tural Gəncəliyev söyləyib.

Tural Gəncəliyev bildirib ki, torpaqlarmızın işğaldan azad edildiyi bir dönəmdə düşmənin bütün hərəkətlərinə hazır olmalıyıq. O deyib: “Erməni lobbisinin təşəbbüsü ilə Konqresdə Nümayəndələr Palatasının müzakirəsinə çıxarmağı planlaşdırdığı 1165 saylı qətnamənin müəllifləri erməni qrupunun həmsədrləri Jackie Speier və Frank Pallonedir. Bu şəxslər uzun illərdir ki, ABŞ-da hakimiyyət dairələrində Ermənistanın maraqlarını qoruyurlar. Onların hər ikisi həm də erməni soyqırımı ilə bağlı aktın sponsorlarıdır. Bildiyimiz kimi, ABŞ-da seçkilər dövrü yaxınlaşır. Belə bir məqamda qətnamə müəllifləri erməni seçicilərin səslərini qazanmaq üçün fəallıq göstərirlər”.

T.Gəncəliyev diqqətə çatdırıb ki, sözügedən qətnamənin qəbulunun dayandırılması üçün ABŞ-da yaşayan soydaşlarımız bütün imkanlardan istifadə etməlidirlər. “Təxmini hesablamalara görə, ABŞ-da 40 min nəfər soydaşımız yaşayır. Hesab edirəm ki, soydaşlarımız yaşadıqları ərazidə yerli ştat və federal səviyyələrdə onları təmsil edən Nümayəndələr Palatasının üzvlərinə hazırkı durumla bağlı məlumatlar çatdırmalı, onlara məktublar ünvanlamalı, onlarla müxtəlif vasitələrlə əlaqə yaradıb 1165 saylı qətnamənin qəbulunun dayandırılmasına çalışmalıdırlar. Soydaşlarımız “Twitter” sosial şəbəkəsində də fəallıq nümayiş etdirməlidirlər. Bu gün ermənilərin bizə qarşı mübarizə apardığı hər bir sahə cəbhə xəttidir və biz bütün sahələrdə düşmənə zərbələr vurmalıyıq”, - deyə T.Gəncəliyev qeyd edib.

## “Nar” cəbhə bölgəsində olan abunəçilərinin balansına 100 dəqiqə və 100 SMS yükləyib




”Nar” cəbhə xətti ilə sərhəddə olan abunəçilərini pulsuz danışıq dəqiqəsi ilə təmin edib. Mobil operator sentyabrın 27-dən etibarən gərgin döyüşlərin getdiyi cəbhəyanı ərazilərdə olan bütün abunəçilərinin balansına 100 ölkədaxili dəqiqə və 100 SMS yükləyib. Məqsəd, torpaqlarımızın azadlığı uğrunda gedən gərgin hərbi əməliyyatlar dövründə təmas xəttindəki vətəndaşları kəsintisiz rabitə ilə təmin etməkdir.

Qeyd edək ki, ”Nar” Azərbaycan xalqının ruh yüksəkliyinə dəstək məqsədilə, bütün sosial media kanallarında ”Nar” loqosunun rəngini Azərbaycan bayrağı ilə əvəz edib. Azərbaycan Ordusunun gücü və şücaəti sayəsində bu döyüşü qələbə ilə başa vuracağımıza, işğal altında olan torpaqlarımızın azad ediləcəyinə inanırıq. Qələbə bizimdir!

# Prezidentə yazırlar: Sizin qətiyyətli, müdrik və cəsarətli siyasətiniz Azərbaycan xalqını uğurlu gələcəyə, parlaq qələbəyə doğru aparır

***Azərbaycan Ordusunun cəbhədə Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr vurması, əldə etdiyi qələbələr vətəndaşlarımız, xaricdə yaşayan soydaşlarımız, həmçinin bir sıra digər ölkələrin vətəndaşları tərəfindən böyük sevinclə qarşılanır. Onlar sevinc hisslərini Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə yazdıqları məktublarda ifadə edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.***



ABŞ-ın Hyuston şəhərindən Təranə Teylor Prezidentə yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, öz adımdan, ailəmiz adından və Hyustonda yaşayan azərbaycanlılar adından Sizi və şanlı Ordumuzu düşmən üzərində gözəl qələbələrə görə ürəkdən təbrik edir və alqışlayıram. Sizə haqq işimizdə uğurlar arzu edirik. Sizin xarici informasiya agentliklərinə müsahibələrinizi izlədikcə belə müdrik, yüksək təhsilli, humanist və eyni zamanda, Vətən üçün qəti sözünü deməyə çəkinməyən rəhbərimizin olması ilə fəxr edirik. Sizi dəstəkləyirik və əlimizdən gələn yardımı etməyə hazırıq. İşimiz haqdır, qələbə bizimlədir!".

Seneqalın "Xalq uğrunda Birlik" partiyasının sədri, xüsusi işlər üzrə səfir, Seneqal Prezidentinin xüsusi işlər üzrə müşaviri, Əl-Mədinə təbliğat qrupunun sədri və baş müdiri Şeyx Məhəmməd Əl-Mənsur Ənyas yazır: "Zati-aliləri cənab İlham Əliyev, möhtərəm cənabınıza Allahın salamı olsun. Ermənistan tərəfindən Azərbaycan torpaqlarında törədilən açıq-aşkar cinayətlərlə müşayiət olunan son xəbərləri böyük təəssüf və ürək ağrısı ilə izlədik. Harada olmağımızdan asılı olmayaraq, var qüvvəmizlə Sizin - qardaşlarımızın yanında olmaq, ölkənizə qarşı müharibədə haqlarınızı və torpaqlarınızı qoruyarkən Sizə dəstək vermək bizim müsəlmanlıq borcumuzdur.

"Əgər Allah sizə yardım edərsə, heç kəs sizə qalib gələ bilməz" (Quran, Al İmran, 160). Şükürlər olsun Allaha, bu gün Siz Vətəninizi müdafiə etməklə özünüzü iki xoş əməldən biri qarşısında qoymusunuz: zəfər və ya da şəhadət. Ağlı başında, bəsirətli insanlar Sizin mövqeyinizin ədalətli olduğunu, müdrik addımlarınızı, səbrinizi və sülh məramınızı görürlər. Biz Seneqaldan Sizinlə tam həmrəyliyimizi, yanınızda olduğumuzu bəyan edir, Allahın düşmənlərinizə qarşı Sizə kömək olması, gücünüzü artırması, bütün müsəlmanların izzəti və fəxri olaraq qalmağınız üçün dua edirik. Qələbəyə yaxın olduğunuzu bəyan edərək Sizə "Davam edin, Allah sizinlədir!" deyirəm. Bəyan edirik ki, Siz istədiyiniz vaxt yanınıza gələrək ölkənizi qorumaq, zəfərinizi yaxınlaşdırmaq üçün müharibəyə qatılmağa hazırıq. Allahın nəzərləri üzərinizdə olsun! Bir daha Sizinlə həmrəy olduğumuzu və Sizi dəstəklədiyimizi bəyan edərək, Allahdan Sizə zəfər, təhlükəsizlik və əmin-amanlıq bəxş etməsini diləyirik".

Türkiyə Ehtiyatda olan Zabitlər Dərnəyinin sədri, ehtiyatda olan general-mayor Namik Kamal Çalışkan Ankaradan dövlətimizin başçısına yazır: "Hörmətli cənab Prezident, bir kökə mənsub olmaqdan qürur duyduğumuz böyük türk birliyinin azad və müstəqil bir dövləti olan Azərbaycan Respublikası mərhum liderimiz Heydər Əliyevin "bir millət, iki dövlət" sözləri ilə ifadə edildiyi kimi həm də bizim Vətənimizdir. Bundan əlavə, ulu öndər Mustafa Kamal Atatürkün dediyi kimi "Azərbaycanın sevinci sevincimizdir, kədərimiz kədərimizdir". Yuxarı Qarabağ da daxil olmaqla torpaqlarınızın bir hissəsini işğal edən ermənilər Birləşmiş Millətlər Təşkilatı və ATƏT-in qərarlarına baxmayaraq bu işğalı davam etdirirlər. Onların mülki əhaliyə qarşı insanlığa sığmayan hərəkətləri qəbul edilə bilməz. Bu işğala və Ermənistanın son vaxtlar həyata keçirdiyi təcavüzə qarşı başladığınız mübarizə bizi qürurlandırdı. Bu qəti mübarizənizdə qələbə qazanacağınıza, illərdir davam edən haqsız işğala son qoyacağınıza, münaqişəni sülh yolu ilə həll etmək istəməyən Ermənistanı və onların havadarlarını sülhə məcbur edəcəyinizə əminəm. Türkiyə Respublikası və türk xalqı hər zaman Azərbaycana qardaşdır. Bu çərçivədə hökumətimizin elan etdiyi dəstək iradəsi xalqımızın da iradəsidir. Türkiyə Ehtiyatda olan Zabitlər Dərnəyi olaraq Azərbaycanı sona qədər dəstəkləyirik. Hər zaman və hər yerdə Azərbaycan Ordusuna hər cür töhfə verməyə hazır olduğumuzu bəyan edirik. Bu müqəddəs mübarizədə şəhid olan qardaşlarımıza mərhəmət və qazilərimizə təcili şəfa diləyirik. Bütün xalqınıza başsağlığı verir, ehtiramımızı bildiririk".

Avstriyanın Vyana şəhərindən Ayan Məmmədli: "Əziz Prezidentimiz, cənab İlham Əliyev, mən hazırda xaricdə təhsil alan yüzlərlə azərbaycanlı tələbələrdən biri kimi doğma Azərbaycanımızın müqəddəs torpaqlarının Sizin rəhbərliyinizlə şanlı Ordumuz tərəfindən işğalçılardan azad edilməsinin sevincini uzaq Avstriyada böyük həyəcanla yaşamaqdayam. Hər gün bu qərib ölkədə doğma yurdumdan aldığım zəfər xəbərləri qəlbimi qürur hissi ilə doldurur. Döyüş meydanlarında şücaət göstərən əsgərlərimizin hər uğurunu ailəmin Xocalıda şəhid olmuş əzizlərinin intiqamının alınması kimi dəyərləndirirəm. Hələ keçən il Avstriya Konservatoriyasında musiqi təhsilin almağa başlayanda ən böyük arzum o olmuşdur ki, Vətənə yetkin musiqiçi kimi dönəndə ilk ifamı yurdumun musiqi beşiyi olan Şuşada səsləndirim. Bu gün çox sevincliyəm ki, digər ərazilərimiz kimi, Şuşanın da azad olunmasına sayılı günlər qalıb. Bu sevinci və xoşbəxtliyi biz tələbə və gənclərə yaşatdığınız üçün Sizə sonsuz minnətdarlığımı bildirirəm. Hazırda doğma Vətəndən uzaqda olsaq da, qəlbimiz xalqımızın qəlbi ilə bir döyünür. Bu sınaq günlərində müzəffər Ordumuza can sağlığı və yalnız böyük qələbələr arzu edirəm. Dualarımız və sevgilərimiz sizinlədir! Yaşasın dünya azərbaycanlıları, yaşasın Ali Baş Komandanımız, yaşasın doğma Azərbaycanımız!".

Ukraynanın Sumı Vilayət Deputatlar Şurasının sədri Vladimir Tokar: "Hörmətli cənab Prezident, Ukrayna ilə Azərbaycan arasında daim dost və tərəfdaşlıq münasibətləri olub. Azərbaycan dost bir ölkə kimi Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü dəstəklədi və dəstəkləməyə davam edir. Odur ki, bu gün Azərbaycan ərazi bütövlüyü üçün ədalətli bir mübarizə apararkən, şəxsən mən uzun müddət Bakıda və ölkənin digər şəhərlərində yaşamış bir insan kimi Sizi və bütün Azərbaycan xalqını dəstəkləyirəm. Axı, Dağlıq Qarabağ beynəlxalq səviyyədə Azərbaycanın bir hissəsi kimi tanınıb. Sumı Vilayət Deputatlar Şurasının sədri, həmçinin bir siyasətçi kimi hesab edirəm ki, Azərbaycanla Ermənistan arasında münaqişə sülh yolu ilə həll olmalıdır. Ermənistanın beynəlxalq hüququ, sülh danışıqlarını açıq şəkildə pozan və insan tələfatı ilə nəticələnən hücumlarını qınayıram. Sülhsevər Azərbaycan və Ukrayna xalqlarına bu çətin lokal münaqişələrdən ən qısa zamanda xilas olmağı və ölkələrində sülhü və sabitliyi bərpa etməyi arzulayıram".

Gürcüstanın Bolnisi rayonunun Talaveri kəndindən Abbasov Bayram, Natiq İsrailov, Xosrov İsmail, Svetlana Eyvazova və Nərgiz Eyvazova yazırlar: "Hörmətli cənab Prezident, Gürcüstanda yaşayan azərbaycanlıların adından müraciət edərək işğalçı ermənilərə qarşı həyata keçirdiyiniz ədalət müharibəsində Sizi tam dəstəklədiyimizi

# Prezidentə yazırlar: Sizin qətiyyətli, müdrik və cəsarətli siyasətiniz Azərbaycan xalqını uğurlu gələcəyə, parlaq qələbəyə doğru aparır

bildiririk. Azərbaycan beynəlxalq hüquqa uyğun olaraq haqqını icra edir, Birləşmiş Millətlər Təşkilatının Qarabağın işğaldan azad edilməsi ilə bağlı qətnamələrinin icrasını tələb edir. Qarabağ Azərbaycandır!".

Gəncə şəhərindən Fazil Səfixanov: "Hörmətli Prezident, cənab Ali Baş Komandan. Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi uğrunda gedən döyüşlərdə Ordumuzun uğurla irəliləməsi, yeni-yeni bölgələrimizi düşməndən təmizləməsi ilə bağlı Sizə minnətdarlığımı bildirirəm. Bu məhz Sizin sayənizdə mümkün olur. Qürurla bildirirəm ki, bir vətəndaş kimi dövlətim və Vətənim qarşısında müqəddəs borcumu yerinə yetirməyə hər zaman hazıram və könüllü olaraq cəbhəyə getmək üçün müraciət etmişəm. Lakin ahıl yaşımla əlaqədar olaraq döyüşlərə aparmırlar. Cənab Ali Baş Komandan, Sizdən xahiş edirəm, göstəriş verin ki, məni də Orduya qəbul etsinlər. Hər zaman Sizin yanınızdayıq, hər an döyüşə hazırıq. Hər şey üçün Sizə minnətdaram. Yaşasın müzəffər Ordumuz!".

Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndindən Rauf Musayev: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, 27 ildən sonra doğma Cəbrayılımızın erməni tapdağından azad edilməsi sevincini bizə bəxş etdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Biz cəbrayıllılar Sizin uzaqgörən siyasətinizi dəstəkləyirik. Verdiyiniz qərarlar və qətiyyətli mövqeyinizlə bizi qələbədən qələbəyə aparırsınız. İnanırıq ki, Sizin rəhbərliyinizlə Ordumuz yeni-yeni zəfərlər qazanacaq. Hörmətli Ali Baş Komandan, biz cəbrayıllılar daim Sizin əmrinizi gözləyir, ölkəmiz uğrunda döyüşməyə hər an hazır olduğumuzu bildiririk. Yaşasın müstəqil Azərbaycan!".

Cəbrayıl rayonundan məcburi köçkün Gültəkin Maxsudova: "Möhtərəm cənab Prezident, Sizin siyasətiniz nəticəsində doğma torpağımız - Cəbrayılımız erməni işğalçılarından azad edildi. Sizə ailəmiz, Quycaq kənd camaatı, bütün cəbrayıllılar adından dərin təşəkkürümü bildirirəm. 27 ildir ki, düşmən tapdağı altında qalan doğma yurd yerimizə yenidən gedəcəyimiz, cənnətməkan torpağının havasını udacağımız, o buz kimi bulaqların suyundan yenidən dadacağımız günü səbirsizliklə gözləyirik. Bu gün Siz bizə yeni nəfəs, yeni ruh bəxş etdiniz. Biz Sizinlə və bütün hərbçilərimizlə fəxr edirik, qürur duyuruq. Allah Sizi və bütün hərbçilərimizi qorusun".

Gəncə şəhərinin 32 saylı tam orta məktəbinin 10-cu sinif şagirdi Qənirə Rzazadə: "Hörmətli cənab Ali Baş Komandan, yaşadığımız tarixi günlərdən son dərəcə ilhamlanaraq, mən də bir məktəbli kimi Sizə məktub yazmağı özümə borc bildim. Cəbrayıl şəhərinin işğaldan azad olunması xəbəri hamımızda böyük sevincə səbəb oldu. Nəzərinizə çatdırmaq istərdim ki, Ermənistanın səngiməyən təxribatları Gəncə şəhərində heç bir narahatlıq yaratmır, əksinə, hər kəsdə mübarizə ruhu vardır. Sizin sayənizdə Azərbaycan dünyada öz sözünü deyə biləcək qüdrətli dövlətə çevrilib. Sizin bütün təşəbbüslərinizi dəstəkləyirik və gələcəkdə də daim dəstəkləyəcəyik. Artıq haqqın zamanı çatıb. Rəşadətli Azərbaycan Ordusu haqqın, ədalətin mücahidlərinə çevrilib. Qarabağ artıq onların həyat amalıdır. Təbiidir ki, Ermənistanın muzdlu döyüşçüləri Vətən həsrəti ilə alışıb-yanan Azərbaycan əsgərini məğlub etməyə qadir deyil. Minlərlə şəhidlərimizin qanı yerdə qalmamalıdır. Şəhid anasının göz yaşları hədər olmamalıdır. Yalnız uğrunda şəhidlik zirvəsinə ucaldıqları torpaqlar qaytarıldıqdan sonra onların ruhu rahatlığa qovuşacaqdır. Qardaş Türkiyə və Pakistan dövlətləri və xalqı mənəvi dəstək yerimiz oldu. Onlara da təşəkkürlərim sonsuzdur. Sizə ailəmiz adından minnətdarıq ki, bizim Prezidentimizsiniz. Uğurlarımız və zəfərlərimiz daimidir. Azərbaycan Ordusu həmişə müzəffərdir. Qarabağ bizimdir. Qarabağ Azərbaycandır".

Kəlbəcər rayonundan məcburi köçkün Vüsal Musalı: "Hörmətli cənab Prezident, Allah Sizdən razı olsun. Allah bizi dəstəkləyən ölkələrin, Rəcəb Tayyib Ərdoğan kimi saleh dostlarımızın sayını artırsın. Siz bu günlərdə xalqımızın Sizə olan etimadını bir daha doğrultdunuz. Bir şəhid övladı olaraq torpaqlarımızın erməni işğalından azad olunmasında göstərdiyiniz qətiyyətli mövqeyinizi dəstəkləyir və bu yolda yürütdüyünüz siyasət uğruna canımı fəda etməyə hazır olduğumu bildirirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Quba şəhərinin sakini Gülnarə Məclumova yazır: "Hörmətli cənab Prezident, torpaqlarımızın işğaldan azad edilməsini çoxdan gözləyirdik. Təhsil işçisi olaraq, əminliklə deyə bilərəm ki, məhz Sizin uğurlu siyasətiniz nəticəsində biz artıq Qələbənin astanasındayıq. Bunun üçün Sizə və şanlı Ordumuza minnətdaram. Düşmən üzərində qazanılan zəfərlərə görə Sizi və xalqımızı təbrik edirəm. Var olsun yenilməz Azərbaycan Ordusu və cənab Ali Baş Komandanımız! Qarabağ Azərbaycandır!".

Laçın rayonunun Minikənd kəndindən Sənan Əmirov: "Rəşadətli, möhtərəm Ali Baş Komandanımız, müdrik və qətiyyətli rəhbərliyinizlə yeni-yeni ərazilərimizin düşmənlərdən azad edilməsi və qürurverici qələbələrimiz münasibətilə Sizi təbrik edirik. Yaxın zamanlarda tam qələbəmizi bayram edəcəyimizə əminik. Hər birimiz, bütün xalq Sizinlədir. Vətənimizin düşməndən azad edilməsi naminə son damla qanımızadək vuruşmağa hazırıq və bunun üçün könüllü olaraq müraciət etmişik. Möhtərəm Prezidentimiz, Siz müdrik lider kimi, dövlətimizin-xalqımızın tarixinə şərəfli səhifələr yazmısınız. Rəşadətli rəhbərliyinizlə apardığınız bu şərəfli müharibə həm Vətən torpaqlarımızı düşməndən azad edəcək, həm də son 200 ildə mənfur qonşumuz ermənilərin bizə etdiklərinə, onların işğalçılıq siyasətinə və hərəkətlərinə layiqli tarixi cavab olacaq. Mövcud qlobal, sosial-siyasi çətinliklər mühitində, haqq işi uğrunda mübarizədə Sizə yeni uğurlar diləyirik, əziz liderimiz. Qarabağ Azərbaycandır! Qələbə bizimlədir! Biz öz rəhbərimizə dərindən inanırıq, güvənirik, daim Sizinləyik. Sizinlə və şücaətli Ordumuzla fəxr edirik".

Bərdə rayonunun Gərənə kəndindən Sevinc Bahadurlu: "Cənab Prezidentim, Bərdə rayon Alpout kənd tam orta məktəbinin kollektivi adından yazaraq bildiririk ki, bu şərəfli zəfər yolunda daim Sizin yanınızdayıq və hər zaman Sizi dəstəkləyirik. Uca Yaradan Sizi, Ordumuzu, xalqımızı qorusun. Azərbaycan xoşbəxt ölkədir ki, güclü ordusu və onun başında duran uzaqgörən Ali Baş Komandanı var. Əziz Prezidentimiz, arzumuz, amalımız Sizinlə, Ordumuzla irəli, qələbəyə doğru getməkdir. İnanırıq ki, Sizin və məğrur Ordumuzun sayəsində işğal olunmuş torpaqlarımız tezliklə qaytarılacaq, üçrəngli bayrağımız Qarabağda dalğalanacaq".

Tovuz rayonunun sakini Ramin Qələndərov: "Çox hörmətli cənab Prezident, biz Tovuz rayonunun çoxsaylı gəncləri Qarabağın düşməndən azad olunması barədə şanlı Ordumuza, qəhrəman əsgərlərimizə Sizin verdiyiniz əks-hücum əmrini ürəkdən bəyənir, dəstəkləyirik və mənfur düşmənə qarşı mübarizədə bizim hər birimiz əsgəriniz olaraq döyüşlərə qatılmağa hazırıq. Cənab Ali Baş Komandan, artıq 30 ilə yaxındır ki, düşmən tapdağında olan Qarabağımızın Sizin dönməz siyasətiniz, mətin iradəniz və Ali rəhbərliyinizlə azad olunmasında biz Tovuz gəncləri olaraq iştirak etməyə hazırıq. Ordumuza uğurlar arzulayırıq".

Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Sərxanlı kəndindən Elvin Quliyev: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə ordumuzun torpaqlarımızın işğaldan azadlığı uğrunda apardığı mübarizədə hər gün eşitdiyimiz yeni zəfər, yeni uğur, yeni qələbə sevincini Uca Allahın yardımı ilə xalqımıza bəxş etdiyiniz üçün Sizə dərin minnətdarlığımızı bildirir, qələbələr münasibətilə Sizi səmimi qəlbdən təbrik edirik. Bu zəfərin əldə edilməsi Sizin ağıllı və savadlı siyasətinizin, müdrik uzaqgörənliyinizin bariz nümunəsidir. Haqq yolunda aparılan mübarizəmizdə Ali Baş Komandan olaraq Sizə güvənirik. Bu günlərdə yaşadığımız zəfər coşqusu bizlərə hər an sevinc göz yaşları, sevincdən doğan qəhər bəxş edir. Bu məktubu yazarkən belə, ardı-arası kəsilməyən, sevincli zəfər xəbərləri eşidirəm. Bir Vətən övladı olaraq azadlıq uğrunda canımdan, qanımdan keçmək üçün səbirsizliklə əmrinizi gözləyirəm. Allah Sizi var etsin, daim qorusun. Biz Sizinləyik, yanınızdayıq. Bir Vətənimiz var - Azərbaycan. Bir şüarımız var - Qarabağ Azərbaycandır!".

Şamaxı rayonundan Samir Xanaliyev: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, bu günlər hamımızın qəlbi qürurla doludur. Mən də keçirdiyim sevinc hisslərini sözlə ifadə edə bilmirəm, fərəhdən göz yaşlarımı saxlaya bilmədim. Siz bizim müdrik, uzaqgörən liderimizsiniz. Xalq həmişə olduğu kimi ətrafınızda sıx birləşərək Sizə güvənir. Zəfər bizimdir. Cənab, Ali Baş Komandan, Sizin komandanlığınızla şanlı ordumuz müqəddəs üçrəngli bayrağımızı, İnşallah, Qarabağda dalğalandıracaq. Ordumuzun zəfərinə çox sevinirik. Bu qələbə əzmini, zəfər sevincini bizə yaşatdığınız üçün Sizə dərin təşəkkür edirik. Sizə, Azərbaycana, şanlı ordumuza daha böyük uğurlar, zəfərlər arzulayıram. Allah Sizə yar olsun. Allah Sizi, xalqımızı, ordumuzu qorusun".

Zaqatala şəhərindən Samir Rəhimov: "Möhtərəm və əziz Prezident, son günlər Azərbaycan Silahlı Qüvvələri qazandığı böyük uğurlarla xalqımızı sevindirir. Dünyadakı bütün azərbaycanlılar Sizin rəhbərliyinizlə ordumuzun bütün torpaqlarımızı işğaldan tam olaraq azad edəcəyinə inanırıq. Bu müqəddəs yolda zəfərin müjdəçisi olan şanlı Ordumuza uğur arzulayırıq. Allah Sizə uzun ömür, cansağlığı versin. Biz hər an Sizinləyik. Allah Sizi qorusun".

Qazax rayonunun sakini Ülvi Zeynalov: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Sizin qətiyyətli, müdrik və cəsarətli siyasətiniz Azərbaycan xalqını hər zaman uğurlu gələcəyə, parlaq qələbəyə doğru aparır. Biz qazaxlı gənclər olaraq Sizin və Ordumuzun ətrafında sıx birləşmişik, xalqımızın işıqlı gələcəyi naminə atdığınız hər bir addımı dəstəkləyirik. Biz Sizin rəhbərliyinizlə əzəli və tarixi Azərbaycan torpaqları olan Dağlıq Qarabağın, o cümlədən, ətraf 7 rayonun birmənalı olaraq düşmən tapdağından azad edilməsi müjdəsini səbirsizliklə gözləyirik. Cənab Ali Baş Komandan, Siz müstəqil Azərbaycanın ərazi bütövlüyünü təmin edən, əzəli və əbədi torpaqlarımız olan Dağlıq Qarabağı işğaldan azad edən sərkərdə kimi tarixdə qalacaqsınız. Əminik ki, gələcək nəsillər ən yeni tarix dərsliyində bu ifadə ilə qarşılaşacaqlar. Bu tarixi anları Azərbaycan gəncliyinə yaşatdığınız üçün Sizə minnətdarıq. Biz Sizinlə fəxr edirik. Uca Tanrı Sizi qorusun".

Sabirabad rayonunun Suqovuşan kəndindən Xalid Əliyev: "Möhtərəm cənab Prezident, bu günlərdə Qarabağ uğrunda gedən mübarizədə Sizinləyik. Bildirmək istəyirəm ki, Sizin yürütdüyünüz siyasəti, atdığınız hər bir addımı tam dəstəkləyirik. Cənab Ali Baş Komandan, Ordumuz Sizin siyasi iradənizdən, millətə olan sevginizdən güc alaraq, böyük ruh yüksəkliyi ilə uğurlu əməliyyatlar həyata keçirir, zəfərlər qazanır. İnanıram ki, bu qələbələr davamlı olacaq, bizə məxsus torpaqlardan sonuncu erməni əsgəri çıxanadək mübarizəmizi davam etdirəcəyik. Atdığınız hər bir addıma, qazandığınız hər bir uğura görə Sizə minnətdaram. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Sumqayıt şəhərindən Qivami Cavadov: "Cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə Ordumuz 30 illik işğala son qoyaraq, Azərbaycan torpaqlarını xain düşmənlərdən azad edir. İgid əsgərlərimiz yeni tarix yazırlar. Bu gün bütün xalq bir yumruq kimi Sizin ətrafınızda cəmləşib, Sizinlə fəxr edir. Yürütdüyünüz məqsədyönlü siyasəti dəstəkləyir, atdığınız hər bir addımı təqdirəlayiq sayırıq. İnşallah, yaxın günlərdə Azərbaycanın üçrəngli bayrağı azad olunan rayon və kəndlərimizdə dalğalanacaq. Mən öz adımdan və ailəm adından Sizə çox-çox minnətdaram. Hər zaman Sizin yanınızdayıq. Allah Sizə uzun ömür, cansağlığı versin".

Ardı Səh. 10

# Prezidentə yazırlar: Sizin qətiyyətli, müdrik və cəsarətli siyasətiniz Azərbaycan xalqını uğurlu gələcəyə, parlaq qələbəyə doğru aparır

Əvvəli Səh. 9

Bakı şəhərindən dosent David Nəsibov: "Hörmətli cənab Prezidentim, bir həftədir ordumuzun zəfər yürüşü ilə torpaqlarımızı 30 ildir işğalda saxlayan, tərəfdaşları ilə yalançı sülh danışıqları vasitəsilə vaxtı uzadan, ancaq heç vaxt, heç bir şərt müqabilində torpaqlarımızı qaytarmağı ağlından belə keçirməyən, çox hiyləgər, işğalçı, mənfur ermənilərdən azad etməsi ürəyimizi fəxarət hissi ilə döyündürür. Sanki yenidən doğuluruq, keçirdiyimiz bütün ağrı-acılar unudulur, uçmaq üçün qanad istəyirik. İnanırıq ki, bu zəfər yürüşü axıradək davam edəcək. Sizin çıxışlarınız, onlara və havadarlarına verdiyiniz haqlı, məntiqi və sərt cavablar bizləri buna bir daha inandırır. İnanın ki, bütün millətimiz böyük ruh yüksəkliyi içindədir, heç bir çətinliklər, gələcək məhrumiyyətlər millətimizin bu ruhunu sarsıda bilməz. Millətimiz ömrü boyu Sizə minnətdar olacaq. Sizin rəhbərliyinizlə şanlı Azərbaycan ordusuna, millətimizə qalibiyyət diləyirik. Üçrəngli bayraqlarımızın işğal olunmuş bütün rayonlarımızda, kəndlərimizdə dalğalanmağına böyük inam hissi ilə yaşayırıq".

Şəki şəhərindən Yusif Kərimli: "Hörmətli cənab Prezidentim, mənim 9 yaşım var. Şəki şəhəri 11 saylı orta məktəbin 4a sinif şagirdiyəm. 5 yaşımdan şahmatla məşğul oluram. 9 yaşım olmağına baxmayaraq şanlı bayrağımızı 4 dəfə dünya və Avropa çempionatlarında yüksək zirvələrə qaldırmışam. Hazırda Qarabağda başlayan zəfər dolu yürüşlərimizi mən və ailəm hər gün sevinc dolu göz yaşlarımızla izləyirik. İnşallah, gözəl bayrağımız qısa müddət ərzində Qarabağımızda və işğalda olan 7 rayonumuzda dalğalanacaqdır. Buna tam inamım var. Bu gün atamın 34 yaşı olur. Suqovuşanın işğaldan azad olunması atam üçün ən böyük hədiyyə oldu. Buna görə Sizə və bütün hərbçilərimizə təşəkkür edirik. Biz idmançılar bu haqlı mübarizəmizdə Sizinləyik. Qarabağ Azərbaycandır! Əminik ki, Sizin komandanlığınızla torpaqlarımıza qayıdacağıq".

Lənkəran rayonunun Boladi kəndindən Akif Nəsirov: "Hörmətli cənab Prezident, cəbhədəki uğurlarımız münasibətilə Sizi ürəkdən təbrik edirəm. Sizə bu şərəfli və haqq yolunda daha böyük uğurlar qazanmağı arzu edirəm. Siz bizim güc və qürur mənbəyimizsiniz. Sizin yorulmaz fəaliyyətinizin nəticəsidir ki, bu gün qüdrətli Azərbaycan Ordusu öz vəzifəsini çox ləyaqətlə icra edir. Azərbaycan xalqı Sizinlə fəxr edir və Sizin arxanızdadır. İşğal altında olan torpaqların azad edilməsi ilə Azərbaycan Respublikasının Milli Məclisindən xahiş edərdim ki, Sizə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilsin. Bir daha Sizi və xalqımızı təbrik edirəm".

Mingəçevir şəhərindən Anar Quliyev: "Hörmətli cənab Prezident, əvvəlcə onu qeyd edim ki, mən bir Azərbaycan vətəndaşı kimi Sizinlə fəxr edirəm. Bu gün mənim doğum günümdür. Mənə ən böyük hədiyyəni Siz verdiniz - Cəbrayıl şəhərini azad etdiniz. Buna görə Sizə və Ordumuza minnətdaram. Biz Sizin uğurlu daxili və xarici siyasətinizi həmişə dəstəkləmişik. Azərbaycan xalqı hər zaman Sizinlədir. Tezliklə Sizdən növbəti şad xəbərləri gözləyirik. Yaşasın Azərbaycan, var olsun Azərbaycan Ordusu! Yaşasın Azərbaycan xalqı!".

Gəncə şəhərindən Rövşən Abbasov: "Hörmətli cənab Prezident, ordumuzun erməni faşistlərinə qarşı apardığı uğurlu əməliyyatlara, gözəl çıxışlarınıza görə Sizə minnətdaram. Biz deyəsən, uzun bir yolun sonuna gəlib çıxmışıq. Ötən illər ərzində ordu quruculuğu işlərinin mükəmməl təşkili və Sizin qətiyyətli mövqeyiniz bizə Qarabağı bəxş etməkdədir. İnşallah, gözəl üçrəngli bayrağımız Şuşada dalğalanacaqdır. Allah Sizi qorusun!".

Sabirabad rayonunun Qaratəpə kəndindən Əlirza Hüseynov: "Hörmətli cənab Prezident, möhtərəm Ali Baş Komandan, Sizi, Mehriban xanım Əliyevanı və dünya azərbaycanlılarını tarixi torpaqlarımızın - Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ və ətraf rayonların düşmən tapdağından azad olunması münasibətilə təbrik edirəm. Sizə bütün Azərbaycan xalqının vahid Lideri və Ali Baş Komandanı kimi bu müqəddəs və haqq işində bizlərə bəxş etdiyiniz qələbələr üçün sonsuz təşəkkürümü bildirirəm. Sizin siyasətiniz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev siyasətinin layiqli davamı və Azərbaycanı işıqlı gələcəyə aparacaq yeganə siyasətdir".

Şirvan şəhərindən Rəşad Abdulla: "Cənab Ali Baş Komandan, 27 sentyabr tarixindən Sizin komandanlığınızla əzəli torpaqlarımızın geri qaytarılması istiqamətində qazandığımız qələbələr bir vətəndaş olaraq hamımızı qürurlandırır və Sizin ətrafınızda daha sıx birləşməyə, çalışdığımız sahə üzrə fəaliyyətimizdə daha diqqətli və dəqiq işləməyə ruhlandırmışdır. Sizə gecəli-gündüzlü çəkdiyiniz bu əziyyətlərdə uca Allahdan cansağlığı, səbir diləyirik. Sizin komandan kimi apardığınız taktiki gedişlərdə qüsursuz vətəndaş kimi hər zaman Sizin ətrafınızda sıx birləşmişik. Hər hansı bir əmrinizi yerinə yetirməyə sıravi əsgər kimi hazırıq. Ümummilli liderimiz Heydər Əliyevin Sizə etibar etdiyi Azərbaycanımızın ərazi bütövlüyü və iqtisadi inkişafı istiqamətində gördüyünüz bütün fəaliyyətinizi dəstəkləyirik və Sizinlə birlikdə bu fəaliyyətinizin bir damlası olmağımızla fəxr edirik. Əzəli torpaqlarımızın geri qayıtması sevincini, qələbəsini görmək bizə yaşamaq, yaratmaq şövqü verdi. Bundan sonra daha çox çalışmaq və Sizin ətrafınızda yumruq kimi birləşmək hamımızın vətəndaşlıq məsuliyyətimizi artırır. Fəaliyyətinizdə, Azərbaycanımızın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda apardığınız mübarizənizdə, dövlətçiliyimizin və iqtisadiyyatımızın inkişafında çəkdiyiniz zəhmətinizə görə Sizə, birinci xanım Mehriban Əliyevaya dərin təşəkkürümüzü bildirir, uca Allahdan cansağlığı, uzun ömür diləyirik. Sizə təşəkkür edirik. Əminik ki, Sizinlə birlikdə güclü olduğumuza inanırsınız. Çox Sağ olun".

Bakı şəhərinin Nizami rayonunun sakini Sevda Abuzərli: "Əziz Prezidentimiz İlham Əliyev, cəbhədə qazandığımız uğurlar bizi həddən artıq sevindirdiyindən övladlarım bir neçə gündür ki, israrla Sizə məktub yazmaq istəyirlər. Mən isə onlara qələbə günündə təbrik məktubu yazarıq söyləyirdim. Bu gün Gəncədə yaşayan valideynlərimlə danışdıqdan sonra onların Prezidentimizə - Sizə olan etibarını, inamını çatdırmağı özümə borc bildim. Əziz Prezidentimiz, mən Sizə və Ordumuza güvəndiyimi bildirərək övladlarımın da ürək sözlərini Sizə çatdırmaq istərdim. Belə ki, qızım Dunay Sizin "Rossiya-1" televiziya kanalındakı çıxışınızı alqış və sevinclə qarşıladığını, daim Sizinlə olduğunu qeyd etməyimi xahiş etdi. Böyük oğlum, Atilla adlı sərkərdəm isə Xankəndidə - Xanın kəndində bayrağımızın dalğalanacağı günü səbirsizliklə gözləyir. On yaşlı Altay balam isə bu yaşda belə Sizin müsəlləh əsgəriniz olmaq arzusundadır.

Sizi və Şanlı Ordumuzu dəstəkləyirik!
Ürəyim, canım, şöhrətim, şanım,
Eşqinlə yanım, Azərbaycanım!".

Balakən rayonundan Xacay Qafarova: "Möhtərəm cənab Prezident, Sizi bir gənc olaraq, bir vətəndaş olaraq səmimiyyətimlə və bütün qəlbimlə dəstəkləyirəm. Aldığınız düzgün qərarların nəticəsinin gətirdiyi xoş xəbərlərə bir azərbaycanlı kimi çox sevinirəm. Sizə inamımız və etibarımız tamdır. Bu gün Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi Sizin dərin strategiya və düzgün yeridilmiş siyasi qərarlarınızın nəticəsidir. Biz gənclərin daim Sizi dəstəklədiyimizi və Sizin yanınızda olduğumuzu bildirmək istəyirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Biləsuvar rayonunun Amankənd kəndindən Mail Hüseynov: "Çox hörmətli Prezidentimiz, cənab Ali Baş Komandanımız, işğalçı dövlətə qarşı apardığınız mübarizədə Azərbaycan xalqı həmişə Sizinlədir. Ordumuzun düşmənə tutarlı cavabı hər bir azərbaycanlı kimi, mənim də qəlbimi fəxr hissi ilə doldurur və qürurlandırır. Cənab Prezident, hazırda iki övladım cəbhədə döyüşür. Böyük övladım Aprel döyüşlərinin iştirakçısı olub, həmin döyüşlərdə yaralanıb, indi yenə torpaqlarımızın azadlığı uğrunda vuruşur. Sizin rəhbərliyinizlə xalqımızın savaşı haqq işidir. Haqq işi hər zaman qalib gələcək. Sizə və Azərbaycan xalqına Qələbə, yeni-yeni zəfərlər arzulayıram. Allah bu haqlı savaşda Ordumuzla və Sizinlə olsun. Xalq və Ordu həmişə bir yerdədir. Biz birlikdə güclüyük".

## Ermənistan ordusunun dinc əhalini hədəfə alması nəticəsində 27 nəfər həlak olub, 141 nəfər xəsarət alıb




Azərbaycan Respublikasının Baş Prokurorluğu beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirən təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyinin bilavasitə göstərişi ilə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrini atəşə tutması nəticəsində həlak olan və xəsarət alan mülki şəxslərin, eləcə də infrastruktura dəyən ziyanın yeni statistikasını açıqlayıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində 6 oktyabr saat 10:00-a olan məlumata görə, həlak olmuş şəxslərin sayı 27-yə, xəsarət alanların sayı isə 141-ə çatıb. Bundan başqa, Ermənistanın ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 376 evə və 63 mülki obyektə ciddi ziyan dəyib.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

## Azərbaycan ötən il informasiya və rabitə xidmətlərindən nə qədər qazanıb?



Azərbaycanda informasiya və rabitə xidmətlərindən ötən il əldə olunan gəlirlər açıqlanıb. AZƏRTAC Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən xəbər verir ki, keçən il ərzində informasiya və rabitə xidmətlərindən ölkə üzrə 2 milyard 223 milyon 586 min manat gəlir əldə edilib. Bunun da 912 milyon 166 min manatı mobil telefon rabitəsinin, 227 milyon 450 min manatı proqram təminatının işlənməsi və bu sahədə məsləhətlərin verilməsinin, 157 milyon 102 min manatı internet xidmətlərinin göstərilməsinin, 117 milyon 460 min manatı məlumatların işlənməsinin, veb-səhifələrin hazırlanması və idarə olunması ilə bağlı fəaliyyətin, 112 milyon 350 min manatı kompüter şəbəkələrinə texniki xidmət və sair informasiya xidmətlərinin göstərilməsinin, 89 milyon 213 min manatı radio, televiziya verilişlərinin translyasiyası və proqramların tərtib edilməsinin, 65 milyon 713 min manatı şəhər-kənd telefon rabitəsinin, 63 milyon 959 min manatı peyk rabitəsinin, 53 milyon 306 min manatı data xidmətlərinin, 45 milyon 447 min manatı şəhərlərarası və beynəlxalq telefon rabitəsinin, 30 milyon 701 min manatı kinofilmlərin, video və televiziya proqramlarının istehsalı ilə əlaqədar fəaliyyətin, 29 milyon 650 min manatı nəşriyyat fəaliyyətinin, 319 milyon 69 min manatı isə digər xidmətlərin payına düşüb.

## Əli Əkbər Vilayəti: Dağlıq Qarabağ Azərbaycana qaytarılmalıdır



Dağlıq Qarabağ Azərbaycana qaytarılmalıdır. AZƏRTAC xəbər verir ki, bu sözləri İran İslam Respublikasının Ali Rəhbəri Seyid Əli Xamneyinin Beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayəti deyib.

O bildirib ki, BMT-nin Dağlıq Qarabağın işğaldan azad edilməsi haqqında 4 qətnaməsi var. İran da BMT-nin üzvü kimi bu qərarların yerinə yetirilməsini istəyir. Ə.Vilayəti diqqətə çatdırıb ki, münaqişə nəticəsində 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkün düşüb. Dağlıq Qarabağ azad edildikdən sonra onlar öz doğma yurdlarına qayıtmalıdırlar.

## Gürcüstanda daha bir erməni həyasızlığı

Dünən Gürcüstanın Axalkalaki bölgəsində yaşayan etnik ermənilər Qarabağın Ermənistan tərəfindən davam etdirilən işğalına və təcavüzünə dəstək mitinqi keçiriblər. SİA xəbər verir ki, bu barədə yazan Gürcüstanın Jnews.ge saytı ""Cavax" (Yerli ermənilər Axalkalakini Cavaxetiya - "kiçik Ermənistan" adlandırmaqla, həmin ərazidə separatçı meyllərlə çıxış edirlər-R.R.) "Artsaxla" birlikdədir" separat xarakterli şüarla keçirilən aksiyanın stadionda baş tutduğunu bildirib.

Stadionda bir neçə min insanın toplandığı qeyd edilməklə yanaşı, onların əllərində Cavaxetiya sakinləri olmuş, Qarabağın işğalında iştirak etmiş və öldürülmüş beş erməni terrorçusunun şəkilləri də tutulub. Hələlik, Gürcüstan tərəfinin separatçılığı və işğalçılığı dəstəkləyən, eləcə də Gürcüstan ərazisində təşkil olunan aksiya ilə bağlı rəsmi heç bir münasibət bildirilməyib.

*Rövşən RƏSULOV*

# Beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünü bərpa etmək Azərbaycanın qanuni haqqıdır

## Milli Məclisin deputatı Rauf Əliyevin yap.org.az-a müsahibəsi



***- Rauf müəllim, son günlər Azərbaycan Ordusu işğalçı Ermənistanın hərbi təxribatlarına cavab olaraq uğurlu əks-hücum əməliyyatı həyata keçirir. Bu barədə fikirlərinizi bilmək istərdik...***

- Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu zəfər yürüşünü davam etdirir. Təcavüzkar Ermənistanın sentyabrın 27-dən Azərbaycana qarşı başladığı geniş miqyaslı hərbi təxribata cavab olaraq Azərbaycan Ordusunun həyata keçirdiyi əkshəmlə əməliyyatları uğurla davam edir. Şanlı Ordumuz Cəbrayıl şəhəri başda olmaqla artıq işğal altında olan bir sıra qəsəbə və kəndlərimizi, böyük strateji əhəmiyyəti olan Murovdağ və digər yüksəklikləri işğaldan azad edib. Əks-hücum əməliyyatları zamanı düşmənin çoxlu sayda canlı qüvvəsi və texnikası məhv edilib. Torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda mübarizə aparan rəşadətli, qəhrəman Ordumuza yeni-yeni qələbələr arzu edirəm.

Düşmən ən müasir silahlarla təchiz olunmuş qəhrəman Azərbaycan Ordusu qarşısında davam gətirə bilmir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müəyyənləşdirdiyi və həyata keçirdiyi hərtərəfli düşünülmüş, müdrik siyasət nəticəsində Azərbaycanda bütün sahələrdə, o cümlədən ordu quruculuğunda yüksək nəticələr əldə olunub. Azərbaycan Ordusu hazırda dünyanın ən qabaqcıl 50 ordu sırasındadır.

Azərbaycan Ordusu əks-hücum əməliyyatlarını uğurla davam etdirir. Gərgin döyüşlər gedir. Rəşadətli Ordumuz yüksək ruh yüksəkliyi ilə, işğal altında olan torpaqlarımızı azad etmək üçün qarşıya qoyulan vəzifələri yüksək peşəkarlıqla və qəhrəmanlıq nümunələri göstərərək yerinə yetirirlər. Bu qələbələr bizim torpaqlarımızı tam azad edənədək gedən yolumuzda əldə etdiyimiz ilk qələbələrdir. Bizim yolumuz haqq yoludur. İnanırıq ki, qəhrəman Azərbaycan Ordusu Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında tezliklə işğal altında olan bütün torpaqlarımızı azad edəcək və Azərbaycan bayrağı Xankəndidə, Şuşada və Qarabağın işğaldan azad olunan digər yaşayış məntəqələrində dalğalanacaq. Bu şərəfli vəzifənin yerinə yetirilməsində qəhrəman Azərbaycan Ordusuna uğurlar arzu edirəm.

***- Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan xalqına müraciətində, eləcə də, xarici kütləvi informasiya vasitələrinə müsahibəsində atəşkəsin bərpa edilməsi üçün şərtləri açıqladı. Bu barədə nə deyə bilərsiniz?***

- Son günlərdə Azərbaycan Prezidenti İlham Əliyev xalqa növbəti müraciət edib, bir sıra nüfuzlu xarici kütləvi informasiya vasitələrinə müsahibələr verib. Bu fakt hazırda baş verən proseslərin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayır. Cənab Prezident həm Azərbaycan xalqına müraciətində, həm də müsahibələrində Ermənistanın işğalçılıq siyasətini bir daha ifşa etdi. Dövlətimizin başçısı bir daha qətiyyətli mövqeyini nümayiş etdirərək bəyan etdi ki, atəşkəsin bərpa olunması üçün Paşinyan Azərbaycan xalqından üzr istəməli, "Qarabağ Ermənistan deyil" deməli və işğal olunmuş torpaqlarımızı tərk etmək üçün konkret cədvəl verilməlidir.

Bütün Azərbaycan xalqı Prezidentimizlə qürur duyur. Prezident İlham Əliyevin bu qətiyyətli mövqeyi bir daha göstərdi ki, dövlət və milli maraqlarımız hər şeydən üstündür. Baxmayaraq ki, müəyyən beynəlxalq dairələr sadəcə atəşkəsin bərpa olunmasına çalışırlar, hətta açıq şəkildə işğalçı ermənilərə dəstək verirlər...

***- Yeri gəlmişkən, Fransa Prezidenti Emmanuel Makron erməniləri açıq şəkildə dəstəkləyən bəyanat verib. Buna münasibətiniz necədir?***

- Fransanın Prezidenti Emmanuel Makronun sentyabrın 30-da Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı baş verən son hadisələrlə bağlı Latviyanın paytaxtı Riqada verdiyi bəyanat münaqişənin həll edilməsi üçün yaradılan Minsk Qrupu həmsədri kimi Fransanın vasitəçilik missiyası ilə uyğun gəlmir, birtərəfli və qərəzlidir. Makronun bu qərəzli və siyasi etik qaydalara sığmayan bəyanatı onu göstərir ki, bu ölkə Minsk Qrupu həmsədri kimi funksiyasını yerinə yetirə bilmir. Münaqişənin sülh yolu ilə həll edilməsi üçün vasitəçilik missiyasını yerinə yetirməli olan bir ölkənin prezidentinin Ermənistana və ermənilərə xitabən "Ermənistana və ermənilərə deyirəm, Fransa da öz rolunu oynayacaq" - deyə bəyanat verməsi əsla qəbul edilə bilməz. Bu, işğalçı Ermənistanın açıq- aşkar dəstəklənməsi və yeni ərazilər işğal etməyə həvəsləndirməkdir.

Vasitəçi tərəfsiz və ədalətli olmalıdır. Makronun timsalında Fransa obyektiv və ədalətli vasitəçi reputasiyasını itirdi. Bu bəyanatla Fransa 30 illik danışıqlar prosesi boyunca tərəflərə fərqli münasibət göstərdiyini ortaya qoydu. Belə olan halda Fransanın Minsk Qrupu həmsədirliyindən kənarlaşdırılması müzakirə olunmalıdır.

Azərbaycan işğalçıya qarşı Vətən Müharibəsi aparır. Bu savaş Azərbaycanın işğal olunmuş torpaqlarının işğaldan tam azad edilənədək davam edəcək. Bu bizim haqq işimizdir. Dağlıq Qarabağ münaqişəli torpaq deyil, Azərbaycanın əbədi, əzəli və beynəlxalq hüquq tərəfindən tanınmış tarixi torpağıdır. Buna anlamayan vasitəçilərin missiyasına ehtiyac yoxdur.

Qəhrəman Ordumuz ruh yüksəkliyi ilə Qarabağda ərzi bütövlüyümüz uğrunda apardığı müharibəni uğurla davam etdirir. Bizim yolumuz haqq yoludur. İnanırıq ki, qəhrəman Azərbaycan Ordusu Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tezliklə işğal altında olan torpaqlarımız azad olunacaq və qələbə bayrağımız Xankəndidə, Şuşada və digər işğaldan azad olan torpaqlarımızda dalğalanacaq.

# Kamran Əliyev "Amnesty İnternational" təşkilatının baş katibinə müraciət ünvanlayıb




Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev "Amnesty İnternational" təşkilatının baş katibi xanım Julie Verhara rəsmi müraciət ünvanlayıb. Baş Prokurorluğun mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, müraciətə səbəb "Amnesty İnternational" təşkilatının veb-saytında 5 oktyabr 2020-ci il tarixdə "Ermənistan - Azərbaycan: mülki şəxslər qadağan edilmiş "claster" bombaların istifadəsindən qorunmalıdır" adlı dərc edilmiş məqalədə bir sıra faktların təhrif edilməsi olub.

Müraciətdə qeyd olunub ki, 27 sentyabr tarixdən etibarən Ermənistan silahlı qüvvələri geniş miqyaslı təxribat həyata keçirərək bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və mövqelərini atəşə tutub, nəticədə mülki insanlar və hərbi qulluqçularımız arasında ölən və yaralananlar var, dinc mülki əhalinin kompakt yaşadığı məntəqələr, mülki infrastruktur obyektləri - xəstəxanalar, tibb müəssisələri, məktəb binaları və uşaq bağçaları qəsdən hədəfə alınır, bu da bir daha Ermənistan rəhbərliyinin dövlət səviyyəsindəki terror siyasətinə sadiq olduğunu göstərir.

Diqqətə çatdırılıb ki, 27.09.2020-ci il tarixdən başlayan erməni terroru nəticəsində 27 mülki şəxs həlak olub, 141 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb, çoxsaylı yaşayış evlərinə və mülki infrastruktur obyektlərinə külli miqdarda ziyan dəyib.

Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozulmaqla, döyüş bölgəsindən xeyli uzaqda yerləşən müxtəlif şəhər və rayonlarımızda dinc mülki əhalinin sıx yaşadığı məntəqələr ağır artilleriya atəşinə tutulub. Belə ki, 500 mindən artıq əhalisi olan Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncə, strateji əhəmiyyət daşıyan sənaye şəhəri Mingəçevir, habelə Beyləqan, Bərdə, Ağcabədi, Goranboy və digər rayonlar istifadəsi qadağan edilmiş raket və qurğulardan atəşə tutulub. 04.10.2020-ci il tarixdə Ermənistan tərəfindən növbəti təxribat törədilərək döyüş bölgəsindən xeyli uzaq məsafədə yerləşən Xızı və Abşeron rayonlarına iki ortamənzilli raket atılıb.

Qeyd edilib ki, mütəxəssislərimiz tərəfindən Ermənistan silahlı qüvvələrinin mülki və strateji obyektlər də daxil olmaqla bütün hədəflərə qarşı beynəlxalq səviyyədə qadağan edilmiş yüksək dağıdıcı qüvvəyə malik "claster" bombalarından və "Smerch" raketlərindən istifadə etməsi müəyyən edilib. Bunu sübut edən foto və videolar da müraciətə əlavə edilib. Bu məlumatlar "Amnesty İnternational" təşkilatının rəhbərinin diqqətinə çatdırılmaqla rəsmi veb-saytda yerləşdirilməsi və bu həssas məsələdə obyektiv və qərəzsiz mövqe tutulması xahiş edilib.

# Düşmənin müharibə cinayətləri - dinc əhaliyə qarşı istifadə olunan raketlər




Ermənistan silahlı qüvvələri sentyabrın 27-si səhər saatlarından genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutur. Dinc sakinlər hədəf alınır, onların evlərinə, əmlaklarına və infrastruktura ciddi ziyan vurulur. SİA yaşayış məntəqələrini məqsədli şəkildə hədəf alan düşmənin atdığı raketlərin bəzilərinin fotolarını təqdim edir.

# Azərbaycanda koronavirus infeksiyasından daha 126 nəfər sağalıb, 143 yoluxma faktı qeydə alınıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 126 nəfər sağalıb, 143 yeni yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 40 min 931 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 38 min 713 nəfər müalicə olunaraq sağalıb, 600 nəfər vəfat edib. Aktiv xəstə sayı 1618 nəfərdir. Ötən müddət ərzində 1 milyon 145 min 397 test aparılıb. Bugünkü test sayı isə 5203-dür.

# Aşıq Ələsgərin 200 illik yubileyinə hazırlıq görülür



***Gələn il görkəmli saz-söz ustadı Aşıq Ələsgərin anadan olmasının 200 illik yubileyi tamam olur. Azərbaycandan Aşıqlar Birliyində (AAB) indidən bu yubileyə hazırlıq işləri görülür, müxtəlif layihələr həyata keçirilir. Bu barədə AZƏRTAC-a AAB-nin katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu məlumat verib.***

Bildirib ki, hazırda Aşıqlar Birliyində, ustad aşıq olmaqla yanaşı, həm də böyük şair kimi məşhur olan Aşıq Ələsgərin lirik şeirlərindən ibarət kitab üzərində iş gedir. Kitaba ustadın lirik gəraylı, qoşma, təcnis və müxəmməsləri daxil ediləcək və hər şeirin əsasən hansı aşıq havası üstündə oxunması da qeyd olunacaq ki, bu da sənətə yeni gələn gənclər üçün xüsusilə böyük əhəmiyyət kəsb edir. Kitabın bu ilin sonunadək nəşr olunması nəzərdə tutulub.

# Ermənistanda antisemitizm

***Ermənistanda milli azlıqlara qarşı ictimai həyatda baş verən mənfi münasibət özünü müxtəlif formalarda göstərir. Ermənistanda yaşayan yəhudilər də bu ayrı-seçkiliyə məruz qalırlar.***




Yəhudilər mənşəyi qədim Yaxın Şərqdə yaşamış yəhudilər və ya İbranilərə söykənən, dərin dini və etnik quruluşa sahib olan, dünyanın müxtəlif yerlərinə səpələnmiş bir xalqdır. Yəhudi dini ilə yəhudi xalqı arasında güclü bir bağlılıq mövcuddur ki, bunun kökləri xalqın tarixi ilə əlaqədardır. Yəhudilər tərkib baxımından 3 əsas qrupa bölünür: aşkenazilər, səfəradilər, mizrahilər.

2018-ci ilin statistik göstəricilərinə görə, dünyadakı yəhudilərin sayı 14606 milyon nəfərdir. Onların 46,2 faizi İsraildə, digərləri isə dünyanın müxtəlif ölkələrində məskunlaşmışdır. Ən çox geniş yayıldıqları ölkələr ABŞ (47,7 faiz), Fransa (3,1 faiz), Kanada (2,1 faiz), İngiltərə (2 faiz), Argentina (2,1 faiz), Rusiya (1,2 faiz) və saïrdir. Yəhudilər digər ölkələrlə yanaşı, Cənubi Qafqaz regionunda da tarixin müxtəlif mərhələrində məskunlaşmış və yaşamışlar. 2017-ci ilin statistik göstəricilərinə görə, Azərbaycanda 7800 nəfər, Gürcüstanda 1600 nəfər yəhudi mövcuddur. Ermənistanda yaşayan yəhudilərin sayı isə bəzi mənbələrdə 100 nəfər, bəzi mənbələrdə isə 500 nəfər göstərilir. Onlar əsasən aşkenazi və mizrahi mənşəli yəhudilərdir. Müasir dövrdə yəhudilər əsasən paytaxt Yerevanla yanaşı, Sevanın Yelenovka kəndində və Vanadzor şəhərində də məskunlaşmışlar. 1988-ci il dekabrın 7-də baş verən Spitak zəlzələsindən əvvəl Gümrüdə də kiçik yəhudi qrupları məskunlaşmışdı.

Yəhudilərin Ermənistanda məskunlaşmasının bir sıra səbəbləri var idi. İkinci Dünya müharibəsi illərində təqiblərə məruz qalan yüzlərlə yəhudi müharibədən sonrakı illərdə sovet Ermənistanına köçmüşdür. Buna görə də İkinci Dünya müharibəsindən sonra sovet Ermənistanındakı yəhudi əhalinin sayı 5000 nəfərə çatmışdı. 1959-cu ilin statistik göstəricilərində isə sovet Ermənistanında yəhudi əhalisinin sayı 10 min nəfər göstərilirdi.

1965-1972-ci illərdə sovet respublikalarında baş verən iqtisadi yüksəliş ilə əlaqədar olaraq Rusiya və Ukraynadan Ermənistana yəhudilərin köçü intensiv xarakter aldı və yəhudilərin sayı Ermənistanda artmağa başladı. Lakin bu artım SSRİ dağıldıqdan sonra davam etmədi, əksinə, yəhudi əhali getdikcə azalmağa başladı. Bunun əsas səbəbi isə antisemitizmin artması, dövlət siyasətinə çevrilməsi və iqtisadi böhran vəziyyətində ölkədə yaşamağın qeyri-mümkünlüyü idi.

Ermənistan müstəqillik elan etdikdən sonrakı illərdə bir sıra səbəblərdən 1989-cu ildə 1246 yəhudi, 1992-1994-cü illərdə 6000-dən çox yəhudi Ermənistandan köçmüş və İsrailə geri dönmüşdülər.

Qeyd olunduğu kimi, yəhudilərin ölkəni tərk etməsinin tək səbəbi iqtisadi böhran deyildi. Belə ki, Ermənistanda yəhudilərin təcrid siyasəti açıq-aydın şəkildə özünü göstərməyə başlamışdı. Ölkədə yaşayan digər millətlərə və etnik azlıqlara qarşı münasibət çox pis idi. Digər millətlərə qarşı aparılan bu təcrid siyasəti yəhudilərə də təsir edirdi. Yəhudilərə qarşı aparılan bu siyasət ümumilikdə "antisemitizm" adlandırılır. Antisemitizm - millətçilik, irqçilik ideologiyasının bir növüdür. Digər millətçilik formalarından fərqi onun yalnız bir xalqa - yəhudi millətinə və mədəniyyətinə, iudaizm dininə qarşı nifrət bəsləməsi və onları təqib etməsidir.

Bu gün İsrail ilə dostluq münasibətləri qurmağa cəhd edən Ermənistanda yəhudilərin əleyhinə çağırışların mövcudluğu əfsanə deyil, reallıqdır. Belə ki, Ermənistanda millətçilik və antisemitizm dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir.

Ermənistan Konstitusiyasının 41-ci maddəsinə əsasən, "Hər kəsin milli və etnik kimliyini qorumaq haqqı vardır. Milli azlıqlara mənsub insanlar ənənələrini, dinlərini, dillərini və mədəniyyətlərini qorumaq və inkişaf etdirmək haqqına malikdir". Əlbəttə, bu Konstitusiyaya əsasən, ölkədə yaşayan yəhudilər kağız üzərində azaddırlar, amma ölkənin etnik tərkibinə nəzər yetirdikdə bunun əksini görmək mümkündür. İsrailli mütəxəssis Arye Qut Amerikada nəşr olunan "The Algemeiner" yəhudi qəzetində "Ermənistanda yəhudilərə qarşı: açıq-aşkar və təhlükəli" adlı məqaləsində yazır: "Erməni cəmiyyətində antisemitik hərəkətlərin artması və iqtisadi vəziyyətin çökməsi yəhudiləri ölkəni tərk etməyə vadar etmişdir''. Cəmi 20 il ərzində Ermənistanın yəhudi əhalisinin sayı azalaraq 5000 nəfərdən bir neçə yüz nəfərə enmişdir.

Belə bir sual meydana çıxır: erməni cəmiyyətindəki yəhudi azlığa qarşı bu nifrətin səbəbi nə ilə əlaqədardır? Əslində, bu, ermənilərin etnopsixoloji xüsusiyyətləri ilə əlaqədardır. Lakin bu problemin ikinci bir səbəbi isə bəzi tarixçilər tərəfindən iddia edilən avantürist fikirlərdir. Tarixi sübutlarla dəstəklənməyən bu nəzəriyyənin iddialarına görə, uydurma "erməni soyqırımı"nda Osmanlı yəhudiləri iştirak etmiş və Osmanlı əsgərlərinə dəstək olmuşlar. Nəticədə isə bu saxta iddialar bütün erməni xalqı, siyasətçiləri tərəfindən mənimsənilmişdir. Lakin bu iddialar reallığı əks etdirmir. Əgər erməni xalqı bunu reallıq kimi qəbul edirsə, o zaman minlərlə yəhudinin ölümünə səbəb olan alman faşist generalı Njde Qaregin və "Dro" ləqəbi ilə tanınan Drastamat Kanayanın öz ölkələrində qəhrəman kimi təbliğ olunduğunu unutmamalıdır. Bununla yanaşı, Azərbaycan və İsrail arasında münasibətlərin yaxşılaşması və inkişafı da Ermənistanda antisemitizmi gücləndirən səbəblərdən biridir.

Ermənistanda antisemitizm 3 səviyyədə mövcuddur:

- erməni cəmiyyəti arasında mövcud olan antisemitizm;
- hakimiyyət və siyasətçilər tərəfindən dəstəklənən antisemitizm;
- KİV vasitəsilə təbliğ olunan antisemitizm.

Erməni cəmiyyətindəki yəhudi nifrəti bir çox hallarda əməli fəaliyyətdə özünü göstərir. 2003-cu ildə Yerevanda Holokost qurbanlarının adına qoyulmuş memorial abidənin yerinin dəyişdirilməsi qərarı qəbul edildi. Səbəb isə bu ərazidə yeni bir obyektin tikilməsi idi. Əslində isə əsas səbəb erməni əhalinin abidəyə vurduğu ziyanı gizlətmək üçün onun gözdən uzaqlaşdırılması idi. Lakin yəhudi icmasının səyləri nəticəsində abidə şəhər daxilində başqa bir əraziyə köçürüldü. Abidə yerləşdirildikdən qısa müddət sonra onun üzərində yenə müxtəlif xəsarətlər meydana gəlməyə başlamışdır. Naməlum şəxslər tərəfindən çəkic və mismar ilə abidə üzərindəki yəhudi atributunun silinməsinə cəhdlər edilmişdir. Ermənilər yəhudilərə olan nifrətini bu abidə üzərindən nümayiş etdirirdi: Yerevanda 2004-ci il yəhudi yeni ilinin son günü kimliyi bəlli olmayan erməni vətəndaşları şəhər mərkəzindəki ictimai parkda Holokost qurbanlarının memorial abidəsi üzərində 666 saylı "şeytan" rəqəmini yazmışdılar. Çox keçmədi ki, 2005-ci il yanvarın 26-da antisemitistlər tərəfindən həmin abidə üzərində qara boya ilə böyük faşist simvolu çəkildi. Yazı dərhal park işçiləri tərəfindən təmizlənsə də, bu hadisəni gizlətmək mümkün olmadı.

2005-ci ildə isə abidə tamamilə aşırdılmış şəkildə tapılmışdır. Bu hadisə yəhudi icmasının rəhbərlərini və yəhudi cəmiyyətini narahat edən antisemitizm aktlarının ən əsası oldu. Bu hadisədən sonra yəhudi icmasının üzvləri hadisəni dərhal polisə bildirmiş, lakin təhqiqat obyektiv aparılmamış və icma üzvlərinə tam məlumat verilməmişdir. Bir müddət sonra isə verilən açıqlamada abidəni saxlayan sütunlarda problem olduğu və abidənin buna görə aşdığı qeyd olunmuşdur. Lakin bu cavabla kifayətlənməyən yəhudi icması üzvləri abidənin yerləşdiyi ərazidə sorğu aparmışdır. Sorğuda iştirak edən Qukas Harutyunyan qeyd edirdi ki, bu və buna bənzər hadisələr abidə qoyulduğu ildən bəri 6 ya da 7 dəfə təkrarlanmışdır. Eyni zamanda o, qeyd edirdi ki, abidənin sütunları çox möhkəmdir və bu səbəbdən onun aşmağı inandırıcı deyil.

Ölkədə antisemitizm yalnız xalq tərəfindən deyil, hakimiyyət və siyasətçilər tərəfindən də dəstəklənir. Erməni millətçiləri ötən bir neçə il ərzində mətbuatda antiyəhudi şərhlər yaymaqla daha da aktivləşmişlər. Ermənistan Ari Birliyi Partiyasının keçmiş lideri, millətçi Armen Avetissyan İsrailin "erməni soyqırımı"nı qəbul etməməsini bəhanə edərək, Ermənistandakı İsrail səfiri Rivka Coheninin ölkə üçün arzuolunmaz adam elan edilməsi çağırışı etmişdi. Bununla kifayətlənməyən A.Avetissiyan "Yerevanq" qəzetində antisemit məqaləsini dərc etdirmişdi. Məqalədə yazılırdı: "Yəhudi azlığına malik olan hər bir ölkənin sabitliyində böyük təhlükə yaranır". O, 2003-2004-cü illərdə Ermənistan mediasında haqqında ən çox danışılan insan oldu. İştirak etdiyi verilişlərdən birində Ermənistanda 50 min "gizli" yəhudinin yaşadığını və onların təsbit edilib ölkədən çıxarılmalı olduğunu vurğuladı.

**Ardı Səh. 13**

# Ermənistanda antisemitizm

Əvvəli səh. 12

Arye Qutun fikrincə, Ermənistan gözdən pərdə asmaq üçün Holokostu qəbul edir, lakin bununla bərabər Ermənistanda faşizm ideologiyası, irqi ayrı-seçkilik dövlət səviyyəsində təbliğ olunur, faşist Almaniyası ilə sıx əməkdaşlıq etmiş erməni millətçilərinə abidələr ucaldılır, küçələrə, meydanlara, tədris müəssisələrinə, strateji mərkəzlərə və başqa obyektlərə onların adları verilir. Bu ölkədə faşizmin, antisemitizmin və terrorizmin populyarlaşdırılması dövlət siyasətinin tərkib hissəsinə çevrilməsinin sübutudur. Yəni Ermənistanda antiazərbaycan siyasəti ilə yanaşı, antisemitizm də tüğyan edir.

Ermənistan müstəqilliyini elan etdikdən sonra hakimiyyətə gələn millətçi qüvvələr demək olar ki, "faşizmin erməni modelini'' yaratdılar. Ermənistandakı yəhudi icmasını hiddətləndirən digər hadisə isə erməni hökumətinin dini və etnik azlıqlarla bağlı idarəsinin rəhbəri, etnoloq Hranuş Xaratyanın "Golos Armenii" qəzetinə verdiyi müsahibə olmuşdur. O, müsahibəsində yəhudilərin Şabat ayinlərində yəhudi olmayanlara qarşı düşmənçilik etdiklərini, onlarla heyvan kimi davrandıqlarını qeyd etmiş, yəhudiləri antixristian fəaliyyətlə məşğul olmaqda ittiham etmişdir. Bunun cavabında yəhudi icmasının üzvləri H.Xaratyanın sözlərini prezident Robert Koçaryana göndərdikləri məktubda "yalan, böhtan və cahillik'' kimi xarakterizə etmiş və R.Koçaryan hakimiyyətindən Ermənistandakı antisemitizmi görməsini tələb etmişdilər. Lakin yəhudi icmasının bu müraciəti hakimiyyət tərəfindən cavabsız qalmış və H.Xaratyan isə üzr istəməyəcəyini bildirmişdir.

Ölkədə antisemitizmin siyasətçilər tərəfindən dəstəkləndiyini göstərən vizual fakt isə faşist Almaniyasının generalı Njdenin şərəfinə 2016-cı ilin may ayında Yerevanda ucaldılan heykəlin açılışında S.Sarkisyanın iştirak etməsi olmuşdur. Lakin bundan əvvəl 2006-cı il yanvarın 27-də Ermənistan Yəhudi İcmasının təşəbbüsü ilə "Holokostu Anma Günü'' adlı tədbir təşkil olunduğu zaman bir çox erməni dövlət adamları və məşhur şəxslər bura dəvət olunsa da, tədbirə yalnız parlamentin deputatı Mkrtiç Minasyan qatılmışdır. Prezidentliyi illərində Njdenin şərəfinə abidənin açılışında iştirak edən S.Sarkisyan o zaman müdafiə naziri vəzifəsində olmuş, lakin o, bu tədbirdə iştirak etməyi lazım bilməmişdi.

Bununla kifayətlənməyən antisemitik dövlət olan Ermənistan "Njdeizm'' ideologiyasını təbliğ edərək onu tədris müəssisələrinin proqramlarına daxil edir və gələcək nəsli bu "dəyərlər" əsasında böyüdür. Arye Qut öz məqaləsində qeyd edir ki, minlərlə yəhudinin qətlə yetirilməsində şəxsən iştirak etmiş millətçi qoşun başçısı Dro başda olmaqla erməni legionunun məqsədi alman ordusu üçün "arzuedilməz" yəhudilərin və başqa millətlərin məhv edilməsi idi. Bununla da Ermənistan rəhbərləri özlərinin faşist və millətçi yanaşmalarını nümayiş etdirdilər.

Lakin yəhudilərə qarşı olan bu "mədəni zorakılıq" yalnız xalq və hakimiyyət tərəfindən deyil, media nümayəndələri və KİV tərəfindən də dəstəklənir. Ölkədə antisemitist məzmunda kitablar nəşr edilir, televiziya verilişləri yayımlanır, media nümayəndələri antisemit çıxışlar edirlər.

1998-ci ildə erməni müəllifi İqor Muradyan "Ermənistanın səsi'' qəzetində yayımlanan məqaləsində yəhudilərin etnik qarışıqlıq yaratdığını və Dağlıq Qarabağ problemində əlləri olduğunu bildirmişdi. O, eyni zamanda türklərlə yaxınlıq edən yəhudiləri Ermənistan üçün təhlükə adlandırmışdı.

"ALM Mediya'' şirkətinin sahibi Tiqran Karapetyan öz çıxışında yəhudiləri təhqir edən ifadələrdən istifadə etmişdi. Onun fikrincə, yəhudilər dünyaya hakim olan qeyri-kafi irqdir və onlar Ermənistana zərər verə bilər. T.Karapetyan həm də yəhudilərin Tövrat qədər hörmət etdiyi "Talmud''u (Yəhudilərin mədəniyyətini, adət-ənənələrini, əfsanələrini birləşdirən dini mətinlər toplusu) təhqir edərək kitabda "davakar ideologiya" təbliğ edildiyini iddia etmişdir. Bütün bunlar sübut edir ki, Ermənistanda antisemitizm dövlət səviyyəsində dəstəklənir.

Yerevanda rus və erməni dillərində nəşr olunan "Milli sistem'' adlı kitab da Ermənistanda antisemitizmin daha bir təzahürü olmuşdur. Romen Yepiskopyanın müəllifi olduğu bu "elmi əsər"də ermənilərin başına gələn bütün müsibətlərdə yəhudilər ittiham edilir, türklər "sui-qəsdçi millət'', yəhudilər isə "məhv edən millət" adlandırılırdı. Eyni zamanda kitabda müəllif Holokostun bir mif olduğunu bildirirdi. Hətta o, "erməni soyqırımı''nda da yəhudiləri ittiham edirdi. Sonradan rus dilində çap olunan "Ermənistan Respublikası" qəzeti bu kitabı qınasa da, bu əslində Ermənistan dövlətinin öz mövqeyini gizlətmə cəhdi idi. Bu da sübut etdi ki, erməni hökuməti ölkədə antisemitizmin qarşısının alınması ilə bağlı problemləri həll etmək və ya idarə etmək üçün heç bir tədbir görmür.

Baş verən bütün hadisələrə rəğmən Ermənistan hökuməti hələ də ölkədə antisemitizmin olmadığını iddia edir. Ermənistandakı Yəhudi İcmasının sədri Rima Varjapetyan öz çıxışında "Ermənistanda antisemitizm yoxdur. Yəhudiliklə əlaqədar heç bir problem yoxdur'' açıqlamasını versə də, antisemitizm Ermənistanda reallıqdır. 2018-ci il martın 28-də "PEW" Araşdırma Mərkəzi tərəfindən açıqlanan məlumatda Şərqi Avropanın 18 ölkəsi arasında Ermənistan yəhudilərə qarşı ən az tolerant olan ölkə seçilmişdi. Digər ölkələrə nisbətən burda antisemitizm 32%-dir ki, bu, çox böyük bir göstəricidir.

Bütün bu faktlar göstərir ki, Ermənistanın yəhudi soyqırımını tanımağına baxmayaraq, bu ölkədə yəhudilərə qarşı qəddar antisemitizm və dərin bir nifrət var.

***Aynur Əzimzadə,***
***AMEA-nın Qafqazşünaslıq İnstitutunun Ermənişünaslıq şöbəsinin kiçik elmi işçisi***
***Newtimes.az***

# "Azərbaycan ərazi bütövlüyünü qorumaq üçün mübarizə aparır"



***"Azərbaycanın haqq mübarizəsinə xüsusilə qərəzli münasibət göstərən Qərb dövlətlərinin, institutlarının, media qurumlarının fəaliyyətini, obyektivliyini və peşəkarlığını şübhə altına almağa tam əsaslar var və onların bütün bu illər ərzində səsləndirdiyi humanizm, ədalət və demokratiya fikirləri yalnızca gözdən pərdə asmaqdan ibarət olub". Bunu "Səs" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Eldəniz Səlimov deyib.***

Onun sözlərinə görə, Fransa, Rusiya, ABŞ və beynəlxalq qurumlar danışıqların bərpasına çağırışlar edirlər: "Halbuki, cənab Prezident son iki ildə Paşinyanın imtina etməsi səbəbindən danışıqlar prosesinin dalana dirəndiyini və dəfələrlə Ermənistanın müharibəyə hazırlaşdığını onların və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb. Bu çağırışların heç birinə nəinki adekvat, ümumiyyətlə reaksiya verilməyib. Azərbaycanın ərazi bütövlüyünü qorumaq üçün mübarizəyə başladığı dövrdə isə Fransa Prezidenti Emmanuel Makron sentyabrın 30-da Riqada qəbuledilməz bəyanatlar səsləndirməyə başlayıb. Bu, ikili standartların bəlkə də dünya üzrə ən bariz nümunəsidir, xüsusilə də bunun Fransa tərəfindən edilməsi isə elə də təəccüblü deyil. Fransa tarixdə dəfələrlə müxtəlif xalqlara qarşı soyqırım törətmiş və qəsbkar bir dövlətdir. 1830-1962-ci illərdə Əlcəzair xalqı 132 il Fransanın müstəmləkəçiliyindən qurtulmaq üçün mübarizə aparıb və nəticədə 1,5 milyon Əlcəairliyə qarşı soyqırım törədilib. Digər bir böyük soyqırım Fransa tərəfindən Cibutidə həyata keçirilib. Fransa Cibutiyə 19-cu əsrin 60-cı illərində daxil olub və 1917-ci ildə bu müstəmləkəçiliyə qarşı başlanan azadlıq hərəkatında 100 minlərlə insan öldürülüb".

E.Səlimov bildirdi ki, 1881-ci ildə Fransa Tunisi işğal edərək onun işğalçılıq siyasətinə etiraz edənlərə və müqavimət göstərənlərə qarşı amansız terror həyata keçirib: "Çad və Qabonda törədilən vəhşilik və qəsbkarlıq da bu soyqırımlar zəncirinin bir halqasıdır. Fransa Qabon torpaqlarında islam dinini qadağan etmiş, din xadimlərini öldürmüş, 10 minlərlə insanı yaşamaq hüququndan məhrum etmişdir. Fransanın mənfur siyasətinin nəticələri bu gün də davam etməkdədir. Kamerunun ingilisdilli və fransızdilli bölgələri arasındakı mövcud savaş Fransanın Afrika bölgəsinə qoyduğu acı mirasdır. Bununla belə, Fransa bu gün başqalarının daxili işlərinə qarışaraq onları qınamaqdan, haqsız bəyanatlar verməkdən də çəkinmir. Makrona tövsiyə edirik ki, Azərbaycana Dağlıq Qarabağla bağlı məsləhətlər və bəyanatlar verməkdənsə, Korsika xalqına öz müqəddəratını müəyyən etmək prinsipini bəxş etməklə əsl "demokratiya" nümunəsi göstərsin. Makronun qeyd olunan bəyanatları münaqişənin nizamlanması üçün yaradılmış Minsk qrupunun həmsədri kimi Fransanın vasitəçilik fəaliyyətinə tamamilə zidd və qərəzlidir. Belə bəyanatlar qəti şəkildə beynəlxalq təhlükəsizliyin təmin edilməsinə xidmət edə bilməz və belə bəyanatlarla Fransa əslində münaqişənin davam etdiyi 30 il ərzində tərəflərə göstərdiyi fərqli münasibəti tam aşkarlığı ilə ortaya qoymuş oldu".

Millət vəkili qeyd etdi ki, hər hansı bir münaqişənin nizamlanmasında vasitəçiliyi öhdəsinə götürmüş dövlət tərəfsiz və qərəzsiz olmalı, danışıqlarını və bəyanatlarını ədalətə və beynəlxalq hüquqa uyğun tənzimləməlidir: "Lakin Fransa işğalçı Ermənistanı qınamalı və təzyiq göstərməli olduğu halda Ermənistana və ermənilərə xitabən "Ermənistana və ermənilərə deyirəm, Fransa da öz rolunu oynayacaq" kimi qəbuledilməz bəyanat səsləndirir. Bu cür siyasi etikaya və beynəlxalq hüquqa sığmayan bəyanat onu göstərir ki, Fransa Minsk qrupunun həmsədri funksiyasını həyata keçirməkdə psixoloji çətinlik çəkir.

Makronun timsalında Fransa həmsədr kimi öz reputasiyasını tamamilə itirdi. Bu baxımdan o, həmin missiyanı ədalətli və qərəzsiz şəkildə yerinə yetirib-yetirə bilməyəcəyi barədə xüsusi açıqlama verməli, bu açıqlama yetərli olmadıqda və ya belə yanaşma təkrarlandığı halda onun Minsk qrupunun həmsədrliyindən uzaqlaşdırılması məsələsinə baxılmalıdır.

Makronun Riqada Türkiyənin Azərbaycana mənəvi dəstəyi ilə bağlı səsləndirdiyi bəyanatları və "Şimali Qarabağın yenidən fəth edilməsi" kimi anlamsız fikirləri isə onun münaqişənin detalları və tarixi barədə xəbərdar olmasına belə şübhə yaradır. Azərbaycan işğalçıya qarşı vətən müharibəsi aparır və Dağlıq Qarabağ mübahisəli ərazi deyil, Azərbaycanın əbədi və əzəli, beynəlxalq hüquq tərəfindən tanınmış tarixi torpağıdır. Bunu anlamayan, bilməyən və ya qəbul etmək istəməyən vasitəçinin və ya digər hər hansı qurum və ya dövlətlərin missiyasına ehtiyac yoxdur. Azərbaycanın öz ərazi bütövlüyünü və dövlət sərhədlərinin toxunulmazlığını təmin etmək üçün ən ali hüququnu reallaşdırdığı bir vaxtda Fransa kimi dövlətlər beynəlxalq hüquqa və özlərinin bütün dünyaya elan etdikləri "sülh, ədalət və demokratiya carçılığı"na uyğun olmayan, yaraşmayan şəkildə hərəkət edirlər. Əlbəttə ki, öz suverenliyini və ərazi bütövlüyünü bərpa etmək niyyətinə görə dövlətimizi qınamağa heç kəsin siyasi və tarixi nöqteyi-nəzərdən haqqı yoxdur. Fransa kimi dövlətlərin və dövlət rəsmilərinin isə buna əlavə olaraq həm də mənəvi haqqı yoxdur.

Azərbaycan işğal edilmiş ərazilərinin hamısı azad edilənə qədər öz mübarizəsini davam etdirəcək. Bu mübarizədə dövlətimizə, o cümlədən dövlət başçımız cənab Prezident İlham Əliyevə göstərdiyi etimad və dəstəyə görə, xalqımıza dərin təşəkkürümü bildirir və göstərdiyi qəhrəmanlıq qarşısında baş əyirəm. Allah tezliklə hamımızı və şəhidlərimizin ruhunu tam qələbə xəbəri ilə sevindirsin. Qarabağ Azərbaycandır!"

***Gülyana***

# Almazbek Atambayev ev dustağı edilib



***Qırğız Respublikasının paytaxtı Bişkekin Pervomay rayon məhkəməsi ölkənin keçmiş prezidenti Almazbek Atambayevin barəsində seçilən həbs tədbirini ev dustaqlığı ilə əvəz edib. SİA TASS-a istinadən xəbər verir ki, bunu keçmiş prezidentin vəkili Sergey Slesarev bildirib.***

Xatırladaq ki, sentyabrın 4-də Qırğız Respublikasında parlament seçkiləri keçirilib. Müxalifət bu siyasi kampaniyanın nəticələrinə etiraz aksiyası keçirib. Oktyabrın 5-də Qırğızıstan parlamenti və başqa dövlət idarələri etirazçılar tərəfindən tutulub. Keçmiş prezident Almazbek Atambayev, keçmiş baş nazir Temir Sarıyev həbsdən azad edilib.

# Qırğızıstanda MSK parlament seçkilərinin nəticələrini ləğv etdi

Qırğızıstan Mərkəzi Seçki Komissiyası dünən ölkədə keçirilmiş parlament seçkilərinin nəticələrini etibarsız elan edib. SİA "RİA Novosti"yə istinadən xəbər verir ki, bu barədə komissiya üzvlərindən biri məlumat verib. Qeyd edək ki, oktyabrın 4-də baş tutmuş seçkilərin nəticələri ilə bağlı ilkin məlumata görə, qanunverici orqanda təmsil olunmaq hüququna Birimdik Partiyası (səslərin 24,52 faizini toplayıb), Mekenim Qırğızıstan Partiyası (23,89%), Qırğızıstan Partiyası (8,73%) və Butun Qırğızıstan Partiyası (7,11%) yiyələnib.

# Erməni KİV-ləri Paşinyanın və komandasının mühakiməsini tələb edirlər!

## Nils Arutunyants: “Biz əvvəllər atılmış səhv geopolitik seçimin acı bəhrələrini yeyirik”



***İşğalçı Ermənistanın və quldur “dqr”in qorxaq, hiyləgər, mənfur silahlı güclərinin Azərbaycan Ordusunun zəfər yürüşü qarşısında tab gətirə bilmədiyini sübut edən (!) bəli, məhz sübut edən daha bir gerçəkliyi dəyərli oxucu auditoriyasının diqqətinə çatdırırıq. SİA xəbər verir ki, Ermənistanın aparıcı media qurumlarından olan Armenianreport.com saytında “Hərbi vəziyyətin qanunları ilə” sərlövhəli analitika təqdim olunub. Analitik yazıda əsasən, Azərbaycan Silahlı Qüvvələrinin Qarabağ cəbhəsində uğurlu hərbi əməliyyatlar tətbiq edərək irəliləməsi, işğal altındakı əraziləri azad etməsi və s. kimi məsələlərlə yanaşı, Prezident İlham Əliyevin işğalçıların ərazilərimizdən it kimi qovulmaları fikrinə də toxunulub.***

### Növbəti tipik erməni “məzlumkeşliyi”

Məhz bu xətt üzrə yazılan məqalədə bildirilir: “”Artsaxda” (Qarabağda) baş verən son hadisələr göstərir ki, indi biz əvvəllər atılmış səhv geopolitik seçimin acı bəhrələrini yeyirik. Məcburam ki, bir daha ağrılı mövzuya toxunam. Təəssüf ki, böyük faciənin yaratdığı vəziyyətdə bu, qaçılmazdır”, məqalənin müəllifi Nils Arutunyants yazır.

Beləliklə, Azərbaycanın Ali Baş Komandanı, Prezident İlham Əliyevin xalqa sonuncu müraciətində irəli sürdüyü sərt və kəskin bəyanatları erməniləri ciddi şəkildə təlaşlandırıb. Erməni müəllif “it kimi qovulmalarını” işğalçı əsgərlərə və ümumiyyətlə, işğala dəstək verən bütün ermənilərə aid olduğunu bildirib. Lakin ən maraqlısı, analitik yazıda o, növbəti dəfə “məzlum erməni” görüntüsü yaratmağa səy göstərərək, ermənilərin “it kimi qovulmaq” məsələsinə susqun qalmalarını şikayət edib.

“Hanı Minsk qrupunun həmsədr ölkələri, hansı ABŞ-ın dövlət departamentinin bəyanatı, hansı Vladimir Putinin, ya da Peskovun adından verilmiş şərhlər?!”, deyə təlaşlı sual edən müəllif bir az da həyasızlaşaraq ölkə başçımızın Fransa prezidenti Makrona da iradlarını bildirməsinə qarşı fransız dövlət rəhbərinin nəyə görə susqun qaldığını bildirib. O cümlədən, rəsmi Bakı ilə rəsmi Ankaranın “Bir millət iki dövlət” prinsipindən çıxış etməsi, habelə qardaş Türkiyə dövlətinin birmənalı olaraq Azərbaycanın haqq işinə tarixi dəstəyini göstərməsi də düşməni, sözün əsl mənasında, əməlli-başlı qıcıqlandırıb, aqressivləşdirib.

### Armenianreport: “Bizim ordu düşmənin hücumlarına cavab verməyə hazır olmadığını göstərdi, müdafiə xətti keçilən oldu”

Bütün bunlar öz yerində, amma keçək “məzlum erməniçiliyin” reallıqları etiraf etməsi məsələsinə. Deməli, adıçəkilən yazıda qeyd olunur ki, onlar başqalarını tənqid edərkən, özlərinin bu cür vəziyyətə düşmələrinin səbəbləri barədə də düşünməlidirlər. Nils Arutunyants Nikol Paşinyanı və komandasını nəzərdə tutaraq yazır: “Ölkənin mövcud rəhbərliyi son iki ildə nə ilə məşğul olub? Axı Azərbaycan öz planlarını gizlətmirdi. Bakı açıq şəkildə Ankara ilə ittifaqı möhkəmləndirir, silah alır, o cümlədən, İsrail və Türkiyə silahları əldə edirdi, hərbi xarakterli bəyanatlar səsləndirirdi. Azərbaycan dəfələrlə silahlarını paradlarda nümayiş etdirirdi. Bəs biz nə edirdik? Təəssüf ki, heç nə. Bizim ordu düşmənin hücumlarına cavab verməyə hazır olmadığını göstərdi, müdafiə xətti keçilən oldu. Bizdə göründüyü kimi, düşmənin PUA-larına qarşı müdafiə olmadı, halbuki 2016-cı ilin aprel müharibəsindən nəticələr çıxarmaq mümkün və lazım idi. Bütün bunların yerinə biz Paşinyandan və Tonoyandan yalnız bravur bəyanatlar eşidirdik”.

### Tonoyana sual edilir: “Müdafiə naziri ötən il vəd verirdi ki, düşmənin yeni ərazilərini alacaq, nəyə görə edə bilmədiyin iş barədə danışırsan?”

Erməni müəllif Ermənistanın müdafiə nazirliyinin boğazdan yuxarı səsləndirdiyi bəyanatlarını da xatırladıb və davam edib: “Müdafiə naziri ötən il vəd verirdi ki, düşmənin yeni ərazilərini alacaq, nəyə görə edə bilmədiyin iş barədə danışırsan? Ümumiyyətlə, sən haraya baxırdın David? (Tonoyan nəzərdə tutulur). İndi məğlubiyyəti nə ilə anladacaqsan?! Bəli, hara çevirirliksə-çevirək, mövcud vəziyyətdə biz məğlub oluruq. Düşmən Şuşaya və Stepanakertə (Xankəndinə) yaxınlaşır və oraları bombalayır”.

Nəticədə, Armenianreport-un analitiki Tonoyanın ardınca bilavasitə Paşinyana xitab edərək yazır ki, məgər erməni baş naziri bilmirdimi ki, belə bir variant (Azərbaycan Ordusunun Xankəndini və Şuşanı işğaldan azad etməsi istiqamətindəki qələbə yürüşləri) mümkündür?

### Tələb: “Paşinyanı və komandasını düşmənə məğlub olduqlarına görə mühakimə etmək lazımdır”

SİTAT: “Nəyə görə o, bu qədər inanırdı? Ona Bakı ilə Ankaranın qarşısının alınması zəmanətini kim vermişdi? Suallar çoxdur. Fakt olaraq bir gerçəklik qalmaqdadır ki, Nikol Paşinyan hakimiyyətə gələnə qədər də biz belə bir dəhşətli vəziyyətdə idik. Əgər belədirsə, o, hər şeyə görə cavab verməlidir. Öz komandası ilə. İstefa ilə də bu işləri həll etmək olmaz. Onları hərbi vəziyyət qanunları ilə düşmənə məğlub olduqlarına görə mühakimə etmək lazımdır”, erməni media qurumunun siyasi təhlilçisi Nils Arutunyants sonda tələb irəli sürüb.

**Rövşən RƏSULOV**

## Ermənilər yasda: Ermənistan ordusu Artur Qalstyanı itirdi

İşğalçı Ermənistan silahlı qüvvələrinin daha bir polkovniki məhv edilib və bu xəbər erməniləri xüsusilə qorxuya, dəhşətə salıb. SİA Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə Ermənistan parlamentinin birinci vitse-spikeri Vahe Enfiacyan özünün “Facebook”dakı səhifəsində yazıb. Ermənistan ordusunun daha bir polkovnik-leytenantı Artur Qalstyanın Azərbaycan əsgərinin açdığı sərrast atəşlə məhv edilməsi barədə işğalçı ölkə “parlamenti”nin birinci vitse-spikeri öz sosial şəbəkə hesabında yazıb.



Xatırladaq ki, Ermənistan silahlı qüvvələrinin polkovnik-leytenantı Artur Qalstyan işğalçı ölkədə “Dəhşət” ləqəbi ilə tanınıb və indi onun məhv edilməsi xəbəri erməni cəmiyyəti üçün növbəti dəfə şok effekti yaradıb.

**İnam Hacıyev**

## “Paşinyan Putinə, Makrona və digər liderlərə yalvarıb-yaxarır”



“Ermənistan çətin durumdadır. Onun düşdüyü hərbi, siyasi, iqtisadi, diplomatik böhran getdikcə dərinləşir. Başını itirən baş nazir Paşinyan aramsız olaraq Putinə, Makrona və digər liderlərə zənglər edir. Azərbaycan Ordusunu durdurmaq üçün onlara yalvarıb-yaxarır”. Bunu SİA-ya Yurddaş Partiyasının sədri Mayis Səfərli deyib.

Onun sözlərinə görə, liderlər isə öz növbəsində, bir-birlərinin ardınca Prezident İlham Əliyevə telefon açırlar: “Ali Baş Komandan özünəməxsus nəzakət, mədəniyyət və ədəb-ərkanla həmkarlarını səbrlə dinləyir və ölkəmizin mövqeyini onlara çatdırır. Mövqeyimiz çox sadədir: İşğalçı əsgərlər torpaqlarımızı tərk etsinlər, atəşi kəsək! Bəlkə də zəng vuranlardan kimlərinsə dişi bağırsağını kəsir. Amma İlham Əliyevin qətiyyəti, Türkiyənin sərt mövqeyi onları məsuliyyətli davranmağa vadar edir.

Hər şeydən əlini üzən Paşinyan dərhal yeni bir xahişlə Rusiya dövlət başçısının zəhləsini tökməyə başlayıb. “Qarabağa Rusiyanın sülhməramlılarını göndərin!” deyərək hey yalvarır. Moskvanın ürəyindən keçənləri dilinə gətirməsi səbəbi ilə Kremldəkilər bu dəfə erməni liderə müsbət cavab verdilər. Rusiyanın Xarici İşlər naziri S.Lavrov dərhal bəyan etdi ki, Ermənistanın və Azərbaycanın razılığı olarsa, rus sülhməramlılarını Qarabağa göndərməyə hazırdırlar. Görünür, Rusiya Azərbaycanın hər zaman onunla hörmətlə davranmasını nəzərə alaraq, bizim belə bir qərarı verəcəyimizə ümid bəsləyir. Nahaq yerə, çox nahaq yerə! Azərbaycan heç vaxt buna getməyəcək!

“Qaynar nöqtələr”də Rusiyanın “sülh göyərçinlərinin” əsl simalarını bütün dünya görüb. Abxaziya və Osetiyada onların qonşumuz Gürcüstanın başına açdıqları müsibətlər unudulan deyil. Əgər ABŞ, Avropanın bəzi dövlətləri olmasaydı, həmin sülhyaradanlar Gürcüstanı tarixin arxivinə göməcəkdilər. Ruslar ölkəmizə yalnız turist, qonaq, iş adamı kimi gəlsinlər. Qonaqpərvərik. Plovumuza,dolmamıza, kababımıza, lavaşımıza qonaq edərik. Amma rus əsgərinin torpaqlarımızda işi yoxdur. Onun ayağı heç vaxt Azərbaycana dəyməyəcəkdir!

Ən yaxşı vasitəçi beynəlxalq qanunlar, öz Konstitusiyamızdır. Erməni silahlıları bir nəfər kimi Azərbaycanı tərk etsinlər, Prezident İlham Əliyevin İrəli sürdüyü şərtlər qəbul olunsun, bax onda döyüşləri dayandırarıq. Ermənistanın indi getdiyi yol onu süquta aparır. Zənnimcə, bunu regionda bizdən başqa istəyənlər çoxdur. Ümumiyyətlə, kökləri olmayan ağaclar tez quruduqları kimi, qondarma dövlətlərin də ömrü ötəri olur. Bu, tarixin obyektiv qanunauyğunluğudur!”.

**Ceyhun Rasimoğlu**

## Ermənistan mətbuatı: Gürcüstan Ermənistana humanitar yardımın buraxılışından imtina edir

Gürcüstan Rusiyada toplanan humanitar yardımların Ermənistana buraxılışından imtina edir. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, Rusiyanın erməni diasporu tərəfindən İrəvan üçün toplanan 12 təcili yardım şəklində humanitar yardım Moskvada ilişib.

Ermənistana məxsus mətbuat səhifəsi yazır ki, bu barədə Rusiya və Gürcüstan Xalqlarının Birliyi Fondunun prezidenti Vladimir Xomeriki “EADaily”-yə danışıb.

“Erməni tərəfinin nümayəndələri ehtiyac duyduğu erməni xalqı üçün nəzərdə tutulmuş xüsusi nəqliyyat vasitələri və tibbi humanitar yardımın Rusiyadan tranziti üçün icazə almaq üçün Gürcüstan Xarici İşlər Nazirliyinə müraciət etdilər. İndiyə qədər tranzit rədd edilib. Bütün avtomobillər Moskvada ilişib qalıb. İmtina ilə əlaqədar olaraq BMT İHK-ya müraciət hazırlanır”, deyə Xomeriki bildirib.

**İnam Hacıyev**

# Vətən mənə "qızım" desə...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

Azərbaycanın Müdafiə Nazirliyində, Daxili Qoşunlarda, Sərhəd Qoşunlarında, Xüsusi Dövlət Mühafizə Xidmətində, Mülki Müdafiə Qoşunlarında və digər hərbi təşkilatlarda zərif cinsin nümayəndələri xidmət edir. Qeyri-rəsmi məlumatlara görə, bizim ölkədə qadınların hərbi çəkisi 3 faizdir. Azərbaycan Silahlı Qüvvələrində qadınların kütləvi xidmətlərini bəzi amillər məhdudlaşdırır. "Sağlam Cəmiyyət" İctimai Birliyinin eksperti, sosioloq Leyla İsmayılova bunu ilk olaraq mentalitetlə bağlayır: "Hesab edirəm ki, bizdə kişilər qadınlardan bir addım öndə ona görə durur ki, təhlükəni birinci qarşılasın və zərif cinsi qorusun. İkinci səbəb qanunvericilikdə bu barədə müddəanın olmamasıdır. Üçüncü və daha vacib arqument isə ondan ibarətdir ki, milli-mənəvi dəyərlərimizə görə qadınların hərbidə iştirakı normal qəbul olunmur

### Aslanın erkəyi dişisi olmaz- deyirlər, bəs vətənin keşiyində duran əsgərin necə?

Müharibə şəraitində olan bir dövlətin hər şeydən qabaq vətəndaşlarının sədaqətinə, sevgisinə və fədakarlığına ehtiyacı var. Vətən anadır, o övladlarını seçmir. Istər qadın olsun, istər kişi, vətənimiz üçün hamısı övladdır. Doğulan hər övlad isə bir əsgərdir...

### Qadınlar nə vaxt əsgər oldu?

Araşdırmalarımıza görə, zərif və gözəl cinsin nümayəndələrinin əsgərlik tarixi 4000 il əvvələ qədər gedib çatır. Qədimdən bəri qadınlar orduda bir çox vəzifələrdə qulluq ediblər.

Dövrümüzdə qadınların məcburi hərbi xitmətə çağırılması ilə bağlı kifayət qədər danışılır. Orduda qadının rolu həmişə müzakirə edilən bir mövzu olub. Düzdür, qadının hərbi borcunu yerinə yetirdiyi ordular var. Amma əksər hallarda döyüşlərdən uzaq tutulan qadın əsgərlər kişilər qədər peşəkar hesab edilmir.

Alimlər hesab edir ki, kişi beyni qadın beyninə nisbətən daha çox inkişaf edib və buna görə də döyüşlərdə qadınların təhlükəni fərq etməsi və reaksiya verməsi kişilərə nisbətən daha ləng olur. Eyni zamanda, kişilərin fiziki cəhətdən daha güclü olması da səbəb göstərilir və əlbəyaxa döyüş anında qadınların gərəkli qüvvəni göstərə bilməməsi sübut gətirilir. Belə ki, qadınların sklet quruluşunun kişilərə nisətən daha seyrək olduğundan qırılmaq, zədələnmək ehtimalı daha çoxdur.

Şanlı tariximizdə qadınların qızğın döyüşlərdə iştirak etdiyi və zəfər çaldığı xeyli nümunə var. Hətta bəzi müharibələrdə kişilər sona qədər döyüşüb həklak olduqdan sonra qadınların ordu yaratması haqda da məlumatlar var. Ərəb tarixçilərinin yazılarında maraqlı bir məqam var. Ərəblərin Azərbaycana təcavüzü zamanı Muğanda gedən döyüşlərdə kişilərin döyüşlərdə həlak olmasından sonrakı günün sabahı son hücuma hazırlaşan ərəb qoşunu qarşısında böyük bir ordu görmüşdü. Qarşı tərəfdə bu qədər kişinin qalmadığını düşünən ərəblər heyrətə gəlmişdi, yalnız döyüş başladıqdan sonra qarşı tərəfin tam olaraq qadınlardan olduğunu fərq etmişdilər...

### Qadın əsgərlər-həm ön cəbhədə, həm də arxada...

Bəzi dövrlərdə qadının hərbi strukturlarda iştirakına duyulsa da, müəyyən dövrlərdə zərif cinsin əsgərlik etməsi qadağan edilib. Amma bu gün dünyada qadın hərbçilərin sayı kifayət qədərdir.

Dünya ordularında qadınların böyük qismi əsasən, arxa cəbhə təminatı və qərargah işlərində çalışırlar. Yalnız İsrail, ABŞ, Rusiya, Çin, Şimali Koreya və Böyük Britaniya ordusunda qadınlar bilavasitə döyüş tapşırıqlarında iştirak edə bilirlər.

İngiltərə ordusunun 9 faizi, Nepal ordusunun isə 40 faizi qadın döyüşçülərdir. İsraildə qadınlar üçün hərbi xidmət məcburidir. Bu ölkədə qadınlar 20 yaşda əsgər aparılır. Kişilərin 3 il hərbi xidmət etdiyi bu ölkədə qadınlar məcburi 2 il hərbi xidmətdə olur. Müsəlman ölkələri arasında isə ən çox qadın İran ordusundadır.

Bu gün qadınlara cəbhədə xidmətinə rəsmi icazə verən verən ölkələr Yeni Zellandiya, Kanada, Danimarka, Finlandiya, Fransa, Almaniya, Norveç, İsrail və İsveçrədir. İngiltərədə qadınlar hərbi xidmətdə daha çox topçu kimi hazırlanır, ABŞ-da hərbi xidmətə gedən qadınlar döyüş pilotu olaraq yetişdirilir. Böyük Vətən Müharibəsi zamanı Sovet Ordusunda qadın əsgərlərin sayı 800 mini keçirdi. Bu qadın əsgərlərin 70 faizi döyüş bölgəsində, səngərdə düşmənlə üzbəüz olub.

ABŞ prezidenti bir neçə il əvvəl çıxışlarının birində bu məsələyə münasibət bildirdi və qadınlar ön cəbhədə xidmət etməsinin mümkünlüyünü vurğuladı. Amma əksər dövlətlər qadının əsgər getmək məcburiyyətinin olmadığı qənaətindədir.

### Qadınlar niyə ordudan uzaq tutulur?

Ekspertlər isə hesab edir ki, istənilən qadın 2-3 aylıq hazırlıq kursu ilə hərbi xidmətə həm fiziki, həm də mənəvi cəhətdən hazır olar. Hazırda qadınlar ümumilikdə bir çox orduda xidmət etsələr də, döyüşlər zamanı ön cəbhədə döyüşmələrinə izin verilmir. Ona görə də, əksər qadın hərbçilər orduda səhiyyə, xilasetmə, rabitə və bu kimi sahələrdə xidmət edir.

Azərbaycanın Müdafiə Nazirliyində, Daxili Qoşunlarda, Sərhəd Qoşunlarında, Xüsusi Dövlət Mühafizə Xidmətində, Mülki Müdafiə Qoşunlarında və digər hərbi təşkilatlarda zərif cinsin nümayəndələri xidmət edir. Qeyri-rəsmi məlumatlara görə, bizim ölkədə qadınların hərbi çəkisi 3 faizdir. Azərbaycan Silahlı Qüvvələrində qadınların kütləvi xidmətlərini bəzi amillər məhdudlaşdırır. "Sağlam Cəmiyyət" İctimai Birliyinin eksperti, sosioloq Leyla İsmayılova bunu ilk olaraq mentalitetlə bağlayır: "Hesab edirəm ki, bizdə kişilər qadınlardan bir addım öndə ona görə durur ki, təhlükəni birinci qarşılasın və zərif cinsi qorusun. İkinci səbəb qanunvericilikdə bu barədə müddəanın olmamasıdır. Üçüncü və daha vacib arqument isə ondan ibarətdir ki, milli-mənəvi dəyərlərimizə görə qadınların hərbidə iştirakı normal qəbul olunmur.

Düzdür, milli mentalitet bu sahədə gender bərabərliyini bir qədər "ört-basdır" edir, amma bu o demək deyil ki, bizim qadınlar orduda xidmət etməyib. Yaxın tariximizə nəzər salsaq, 1-ci Qarabağ müharibəsində də xeyli qadın döyüşçülərin olduğunu görərik. 1991-1994-cü illərdə 500-dən artıq qadın müxtəlif hərbi hissələrin tərkibində cəbhədə döyüşüb. O zaman ayrıca qadın batalyonu da yaradılmışdı".

### Qadınlar Vətən uğrunda döyüşməyə hazırdırmı?

Ermənistanda qadınların orduya cəlb edilməsi haqda şou xəbərlər fonunda Azərbaycanda həqiqi hazır olan yüz minlərlə qadın var. Sadəcə fərq ondadır ki, Ermənmistanın buna ehtiyacı var, Azərbaycanın isə yox. Ehtiyac olacağı halda düşmən tərəfdən döyüşə girək hər qadına qarşı biz tərəfdən döyüşəcək azı 10 qadın əsgər potensialı var.

Hazırda Azərbaycan Ordusunda xidmət edən Arzu Bayramova (ad şərtidir-red) deyir ki, hərbi xidmətdə qadınlar üçün asan olmasa da, elə çətin də deyil: "İstək və iradə olduqdan sonra hər şeyi bacarmaq olar. Ehtiyac olduqda döyüşlərə də gedə bilərik və kişilərdən heç də geri qalmarıq. Vətən darda olanda qadın-kişi ayrıseçkiliyi ola bilməz, hamı vətənimiz və xalqımız uğrunda döyüşməlidir. Tariximizdə buna aid misalllar o qədər çoxdur ki. Böyük Vətən Müharibəsində azərbaycanlı qadın döyüşçülər böyük qəhrəmanlıq göstəriblər. 1-ci Qarabağ Müharibəsində də yüzlərlə qadın döyüşüb. Bu gün isə milyonlarla qadın döyüşməyə hazırdır. Siz baxın, hərbi komissarlıqların qarşısında, sosial şəbəkələrdə minlərlə qadın tələb edir ki, onları orduya aparsınlar. Düzdür komandanlıq buna ehtiyac görmür, lakin biz həmişə hazırıq".

Feministlər isə hesab edir ki, qadınların ordudan uzaq tutulması cinsi ayrı-seçkilikçiliyin son həddidir. Qadınların bu ampluada qəbul edilmədiyini bildirən feministlər əsgərliyin qadının ən təbii haqqı olduğunu düşünürlər. Onların fikrincə, əks cinsin nümayəndələri qadın uğuruna dözə bilmədiyindən bu cür qərarların qəbuluna imkan vermir. Halbuki, qadınların döyüş sahəsində qazandığı uğurlara dair tarixdə çox nümunə var.

### Psixoloq: "Qadınlar zərifdirlər, zəif deyillər"

Qadınların döyüş bölgəsində olmasına icazə verilməməsi onların psixoloji cəhətdən də davam gətirməyə biləcəyi ilə əsaslandırılır. Amma bir qədər əvvəl qeyd etdiyimiz kimi, Böyük Vətən Müharibəsində Sovet Ordusunda 800 min qadın hərbçi olub və onların hamısı olmasa da, böyük qismi ön xətdə döyüşüb. Nə qədər facіə yaşayıb, nə qədər dəhşət görüb.

İran ordusunda qadın əsgərlərə daha çox üstünlük verilir, bunun səbəbi də qadınların daya yaxşı atıcılıq qabiliyyətinin olmasıdır. Bu orduda qadınlar daha çox snayper olur. Digər ölkələrin ordusunda da də qadın snayperlərə çox rast gəlinir. Psixoloqlar deyir ki, qadının zərif cinsdən olması onun zəif olması demək deyil. Əksinə, elə qadınlar var ki, bəzi kişilərdən daha dözümlüdürlər. Psixoloq Aydın Əsədov deyir ki, qadına zəiflik damğasını yapışdıranlar məhz kişilərdir: "Hər gün bir kişiyə onlarla insan "zəifsən" desə, o da zəif olacaq, çünki qadınları bu cür sözlərlə zorla zəif olmağa məhkum edirlər. Psixoloji təzyiq fiziki cəhətdən ən güclü kişini belə zəif edə bilər".

Psixoloq hesab edir ki, qadınların öz potensialını göstərmələri üçün güvənə ehtiyacları var: "Bir qədər güvənmə və azacıq inamla onlar nəyə qadir olduqlarını göstərə bilərlər. Orduda da xidmət edə bilərlər, ən ağır işlərdə də işləyə bilərlər. Kosmonavt, pilot olan qadın torpaqda vətənini qorumağı bacarmayacaqmı?"

***

Məmməd Arazın məşhur şeirindən iki misra düşür yadıma: "vətən mənə oğul desə nə dərdim, mamır olub qayasında bitərdim". Zərif cinsin nümayəndələri isə deyir ki, vətən oğul-qız ayrılığı etmir, əsas olan vətənə əsgər ola bilməkdir...

**Lalə Mehralı**

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

7 oktyabr

## “Real” 40 il sonra ilk dəfə...



“Real” son 40 ildə ilk dəfə yay transfer pəncərəsində yeni futbolçu almayıb. AS nəşri xəbər verir ki, “kral klubu”nun icarədə olan oyunçularından qapıçı Andrei Lunin (“Ovideo”), müdafiəçi Alvaro Odriosola (“Bavariya”) və yarımmüdafiəçi Martin Edeqor (Real Soysedad”) komandaya geri qayıdıb. Lakin İspaniya təmsilçisi yeni futbolçu transfer etməyib. Klub son dəfə 1980-ci ilin yay transfer pəncərəsində oyunçu almayıb.

Qeyd edək ki, “Real” ötən mövsüm “Barselona”nı 5 xal qabaqlayaraq, 87 xalla La Liqanın çempionu olub. Yeni mövsümdə aktivində 10 xalı olan komanda turnir cədvəlinə başçılıq edir.

## “France Football” tarixin ən yaxşı 10 qapıçısının adını açıqlayıb




***Fransanın “France Football” nəşri tarixin ən yaxşı 10 qapıçısının adını açıqlayıb. Belə ki, siyahıda SSRİ milli komandasının heyətində 1960-cı ildə Avropa çempionu olan Lev Yaşində var. Yaşindən əlavə ən yaxşı qapıçıların siyahısında ingiltərəli Qordon Banks, italiyalı Canluici Buffon və Dino Zoff, ispaniyalı İlker Kasilyas, almaniyalı Sepp Mayer və Manuel Noyer, kamerunlu Tom N’Kono, danimarkalı Peter Şmeyxel və niderlandlı Edvin van der Sar yer alıblar.***

Siyahıda hazırda yaşıl meydanlara çıxış edən yeganə futbolçular “Bayern Münhen”in qapıçısı Manuel Noyer və “Yuventus”un qolkiperi Canluici Buffondur. Qeyd edək ki, L.Yaşin 1963-cü ildə Fransa Futbol mükafatı olan “Qızıl Top”u alıb. O, bu mükafatı alan yeganə qapıçıdır.

## Azərbaycan neftinin bir barreli 40,47 dollara satılır

Azərbaycan neftinin qiyməti bahalaşıb. AZƏRTAC xəbər verir ki, “Azeri Light” markalı neftin bir barrelinin qiyməti 1,63 dollar artaraq 40,47 dollar təşkil edib. Qeyd edək ki, Azərbaycan neftinin bir barrelinin qiyməti bu il aprelin 21-də minimuma enərək 15,81 dollar, 2008-ci ilin iyulunda isə maksimuma yüksələrək 149,66 dollar olub.



## Koronavirus Avropa basketbolunu çökdürüb

Avropada koronavirusun ikinci dalğası yaşanır. Bu isə qitənin basketbol həyatına yetərincə böyük zərbə vurur. Artıq Avropanın aparıcı ölkələrinin klublarında koronavirusa yoluxma halları günbəgün artır.

AZƏRTAC xəbər verir ki, Avropanın aparıcı basketbol çempionatlarında yeni mövsüm start götürsə də, koronavirusun ikinci dalğası komandaların planlarını alt-üst edir. Bu mənada İspaniya və Rusiyada vəziyyət daha acınacaqlı həddə çatıb. Belə ki, Avroliqanın aparıcı klublarından olan ÇSKA-nın 10 basketbolçusu koronavirusa yoluxub. Özü də bu oyunçulardan 3-ü Moskva klubunun əsas heyətinin üzvüdür. Söhbət Semyon Antonov, Nikola Milutinov və Yanis Strelnieksdən gedir. Eyni problemdən ÇSKA-nın əzəli rəqiblərindən olan “Ximki” də əziyyət çəkir. Rusiya mətbuatının yazdığına görə, komandada Yannis Timma, Yevgeni Voronov və Cordan Mikkinin COVID-19 testi müsbət nəticələnib.



Amma Rusiyada vəziyyət acınacaqlı həddə çatsa, VTB Liqasının oyunları davam edir. İspaniyada isə belə hallara görə çempionatın oyunları dayandırılır.

Artıq ACB Liqasında “Real”ın “Qran Kanariya” ilə oyunu təxirə salınıb. Buna səbəb “Qran Kanariya”nın üzvlərindən birinin koronavirusa yoluxmasıdır. Eləcə “Barselona” ilə “Gipuskoa” arasında oyun da eyni səbəbdən başqa tarixə keçirilib.

Qeyd edək ki, bir neçə gün əvvəl “Barselona”nın baş məşqçisi Şarunas Yasikyaviçyus və onun köməkçisi Darius Maskolyunas koronavirusa yoluxmuşdu.

## ÜST: Pandemiya dünyada psixi pozuntulardan əziyyət çəkənlərin sayını artırıb

COVID-19 pandemiyası şəraitində getdikcə daha çox insanda psixoloji dəstəyə ehtiyac yaranır. AZƏRTAC BMT-nin Xəbərlər xidmətinə istinadla bildirir ki, bu dəstəyi əldə etmək imkanları isə getdikcə azalır. İyun-avqust aylarında Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən keçirilmiş sorğuda iştirak edən ölkələrin 93 faizində psixoloji yardım proqramları bu və ya digər dərəcədə ləğv edilib.

“Yaxşı psixi sağlamlıq insanın ümumi sağlamlığının və rifahının rəhnidir. Bütün dünyada COVID-19 kritik psixoloji yardımın göstərilməsini məhz onun vacib olduğu anda pozdu”, - deyə ÜST-nin Baş direktoru Tedros Qebreyesus qeyd edib. O, hökumətləri pandemiya dövründə də, gələcəkdə də həyati vacib psixoloji yardım proqramlarını dəstəkləməyə çağırıb.



Hazırkı tədqiqat bu qəbildən olan ilk sorğudur və 130 ölkəni əhatə edir. Onun məqsədi COVID-19 pandemiyasının əhaliyə psixi yardım xidmətlərinə necə təsir göstərdiyini və hökumətlərin bu sahəni gücləndirmək üçün hansı tədbirləri həyata keçirdiyini öyrənmək idi.

Ölkələrin 60 faizindən çoxu əhalinin xüsusilə zəif qruplarına - uşaq və yeniyetmələrə, yaşlı insanlara, həmilələrə yönəlmiş məsləhət və psixoterapiya proqramlarını pozmalı olduqlarını bildirib. Dövlətlərin üçdəbirindən çoxu fövqəladə hallarda belə tam yardım göstərə bilmir. Ölkələrin 65 faizi narkotik aludəçiləri üçün zərərin azaldılması proqramlarını davam etdirə bilmir.

## Şəxsi avtomobili ilə ticarətlə məşğul olan şəxs fərqlənmə nişanı almalıdırmı?

Şəxsi avtomobili ilə pərakəndə ticarətlə -ərzaq məhsullarının satışı ilə məşğul olan fiziki şəxs fərqlənmə nişanı almalıdırmı? Dövlət Vergi Xidmətindən AZƏRTAC-ın sualına cavab olaraq bildirilib ki, fiziki şəxs mülkiyyətində olan avtomobil nəqliyyatı vasitələri ilə öz istehsal fəaliyyətini təmin etmək üçün özünə məxsus yüklərin daşınmasında istifadə olunan nəqliyyat vasitələri üçün ”Xüsusi fərqlənmə nişanı” almalıdır. ”Xüsusi fərqlənmə nişanı” mülkiyyətində nəqliyyat vasitələri olan vergiödəyicilərinin müraciətindən sonra 5 iş günü ərzində Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən verilir və onun alınması üçün hər hansı haqq ödənilmir.




## ELAN

**“Nar” cəbhə bölgəsində olan abunəçilərinin balansına 100 dəqiqə və 100 SMS yükləyib**

“Nar” cəbhə xətti ilə sərhəddə olan abunəçilərini pulsuz danışıq dəqiqəsi ilə təmin edib. Mobil operator sentyabrın 27-dən etibarən gərgin döyüşlərin getdiyi cəbhəyanı ərazilərdə olan bütün abunəçilərinin balansına 100 ölkədaxili dəqiqə və 100 SMS yükləyib. Məqsəd torpaqlarımızın azadlığı uğrunda gedən gərgin hərbi əməliyyatlar dövründə təmas xəttindəki vətəndaşları kəsintisiz rabitə ilə təmin etməkdir.

nar
Çünki daha çoxuna layiqsən

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600